www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 avqust 2016-cı il Çərşənbə axşamı № 179 (6500) Qiymәti 60 qәpik

**Xəbər**

## Daha bir NİDA-çı gənc narkotik ittihamı ilə həbs edildi

yazısı səh.13-də

**Gündəm**

### "Böyük özəlləşdirmə" başladı: onlarla obyekt hərracda



Əmlak Məsələləri Dövlət Komitəsinin qərarı ilə çoxsaylı dövlət müəssisə və obyektləri özəlləşdirməyə çıxarılıb-siyahı

yazısı səh.12-də

# Rusiya regiondakı hərbi-siyasi oriyentirini dəyişir?

# "KREML ERMƏNİSTANI MÜDAFİƏSİZ QOYUR" - ŞOYQUNUN QƏFİL BAKI SƏFƏRİNDƏ İKİ HƏDƏF

Rusiya və Azərbaycan hərb nazirlərinin bir günlük fasilə ilə qarşılıqlı səfərlərinin pərdəarxası; işğalçı ölkəni təlaşa salan daha bir qalmaqallı olay; **erməni KİV-ləri:** "Rusiya Azərbaycanı yeni müharibəyə hazırlayır..."



yazısı səh.5-də

### Əli Kərimlinin qaynının ölümlə hədələnməsi iddiasına rəsmi reaksiya

yazısı səh.3-də

### Rusiya Azərbaycanla yanaşı Türkiyəni də Avrasiya İttifaqına qoşmaq istəyir

yazısı səh.6-da

### YAP-ın Ağdam təşkilatının yeni sədri müsavatçıdır?

yazısı səh.3-də

### Müxalifət mitinq qərarında tələsmir

yazısı səh.7-də

### Müxalif düşərgədən xalq artistinin erməni stilistlə dostluq edən qızına ağır suçlamalar

yazısı səh.15-də

### Gülər Əhmədova Berlində bir neçə xəstəlikdən müalicə alır

yazısı səh.3-də

### İrəvanda baş verənlər Sərkisyanın oyunudur, yoxsa sonu?

yazısı səh.10-da

### Nadir Qafarzadə sosial şəbəkədə qırğın saldı

yazısı səh.15-də

### Bəxtiyar Hacıyev polislə dalaşıb məhkəməlik oldu

yazısı səh.13-də

### Nazir idarə rəislərinə töhmət verdi

yazısı səh.4-də

## Eldar Mahmudovun həbsinə hazırlıqlar başladı-ifadələr toplanır

Sabiq nazirin əleyhinə şahid ifadələrini rəsmiləşdirməyə başlayıblar; Mahmudovu bugünlərdə qandallaya bilərlər

yazısı səh.4-də



### Respublika Prokurorluğu Natiq Cəfərlinin həbsinin səbəbini açıqladı

yazısı səh.7-də



### Cahangir Hacıyev ilk dəfə hakim qarşısına çıxarıldı

yazısı səh.4-də



*Türkiyə səfiri:*

### "Qərb səmimiyyət testindən keçə bilmədi"

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 179 (6500) 16 avqust 2016

# Dərmanların qiyməti dəyişir



**Dövlət Statistika Komitəsi mal və xidmətlərin qiymətləri ilə bağlı bu ilin 7 ayının statistik hesabatını açıqlayıb. Rəsmi göstəricilərə görə, yanvar-iyul aylarında dərmanların qiyməti bir neçə faiz bahalaşıb.**

İqtisadçı Rövşən Ağayev deyir ki, ərzaq və qeyri-ərzaq malları içərisində bahalşmanın lideri məhz dərman vasitələridir. "Son 1 ildə dərmanların qiyməti 34 faiz, tibbi təyinatlı digər məhsullar isə 24 faiz bahalanıb. Tibbi sığorta sistemi çalışmadığından müalicə və sağlamlığın qorunması ilə bağlı xərclər ailə büdcəsində kifayət qədər yüksəkdir",-deyə iqtisadçı əlavə edib.

Qeyd edək ki, Tarif Şurasının qərarı ilə indiyədək 9850 adda dərmanın qiyməti tənzimlənib. Şuranın sonuncu iclası avqustun 4-də olub və 219 dərman vasitəsinin qiyməti təsdiqlənib. 7347 dərman vasitəsi təsdiq edilmiş qiymətlərlə artıq satışdadır, digər 2503 dərman vasitəsinin yeni qiymətləri isə bu ilin sentyabr ayının 1-dən qüvvəyə minəcək.

Beləliklə, sentyabrın 1-dən qiymətləri təsdiq edilməyən dövlət qeydiyyatına alınmış dərman vasitələrinin satışı yalnız həmin dərmanların qiymətləri təsdiq olunduqdan sonra həyata keçirilə bilər.

Tarif Şurasının açıqlamasına görə, idxal dəyəri ilə ifadədə 44 faiz dərman vasitəsinin qiyməti 2 dəfədən çox, 25 faizinin qiyməti 3 dəfədən çox endirilib.



## Heydər Əliyev Fondu aktyorun müalicə xərclərini öz üzərinə götürdü

**Heydər Əliyev Fondu böyrək çatışmazlığından əziyyət çəkən gənc aktyor Rəhim Rəhimovun əməliyyat və müalicə xərclərini öz üzərinə götürüb. Bu barədə "Report"a Rəhim Rəhimov məlumat verib.**

Aktyor qeyd edib ki, əməliyyat xərclərinə kömək göstərilməsi üçün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, deputat Mehriban Əliyevaya məktubla müraciət edib: "Məktubuma müsbət cavab verilib. Əməliyyat xərclərini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Məktubuma diqqətlə yanaşdığına və göstərdiyi köməkliyə görə Mehriban xanıma təşəkkür edirəm. Əməliyyatın sentyabrda olması nəzərdə tutulub. İndi növbəmi gözləyirəm". R.Rəhimov bildirib ki, hazırda müalicəsi davam edir və əvvəlki vaxtlarla müqayisədə vəziyyəti normaldır: "Həkimlərin məsləhəti ilə gəzintiyə çıxıram. Hətta həkimlər işə çıxmağıma icazə verib və sentyabrda Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrına qayıdacam".

Aktyor bildirib ki, həkim ona bəzi məhdudiyyətlər də qoyub: "Mənə çevik hərəkətlər etmək, tərləmək, ağır iş görmək qətiyyən olmaz. Səhnədə çevik hərəkətlər etmək və tərləmək həmişə olur. Amma çalışacam ki, yüngül hərəkətlər tələb edən tamaşalarımdan oynayım".

Qeyd edək ki, xəstə olduğu müddətdə ona bütün teatrların kollektivlərinin baş çəkdiyini deyən R.Rəhimov onu unutmayanlara təşəkkürünü bildirib.

## Taksi və marşrut avtobuslarının fəaliyyətinin monitorinqi başlayır

**Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi taksi-minik avtomobilləri və marşrut avtobusları ilə bağlı monitorinq aparacaq. "Report"un xəbərinə görə, bu barədə Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin baş direktorunun müşaviri Mübariz Abbasov məlumat verib.**

O bildirib ki, monitorinqin məqsədi nəqliyyat vasitələrinin standartlara cavab verib-verməməsi ilə bağlıdır: "Bakıda və Abşeronda 16 mindən artıq taksi-minik avtomobili, 2300-dən çox orta və iritutumlu avtobuslar var. Bakı şəhərinin inzibati ərazisində daşıma fəaliyyəti həyata keçirən 53 hüquqi və fiziki şəxsə məxsus nəqliyyat vasitələrində, istehsalat bazalarında monitorinq aparılacaq. Nəqliyyat vasitələrinin istismara yararlı olub-olmaması vacibdir. Monitorinqlərin nəticələri barədə ictimaiyyət də məlumatlanıdırılacaq".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## Türkiyənin Suriya böhranının həlli ilə bağlı 3 maddəlik planı açıqlanıb

**Türkiyənin Suriyadakı problemin həlli ilə bağlı 3 maddəlik planı var.**

"Report" Türkiyə KİV-inə istinadən xəbər verir ki, ölkənin baş naziri Binəli Yıldırım jurnalistlərə açıqlamasında Suriya probleminin həllinə çox yaxın olduqlarını bildirib.

"Biz bölgədə marağı olan qüvvələrlə birlikdə problemi həll edəcəyik", - deyən baş nazir məsələnin həlli ilə bağlı Türkiyənin irəli sürdüyü prinsipləri də açıqlayıb:

"1.Suriyanın ərazi bütövlüyü qorunacaq. Başqa sözlə, bu ölkədə PYD-nin (terrorçu PKK-nın Suriyadakı qolu - "Report") təsiri altında olacaq bir dövlətin qurulması müzakirə edilməyəcək;

2.Yeni mərhələdə məzhəbə, etnik və regional məsələlərdən birinin üstünlüyünə əsaslanan bir dövlət quruluşu olmayacaq. Məzhəb əsasında bir dövlət qurulmayacaqsa, deməli, Bəşşar Əsəd də siyasi səhnədə uzun müddət qalmayacaq;

3.Məsələnin Türkiyə ilə bağlı ən əhəmiyyətli hissəsi isə suriyalı qaçqınların geri qayıtmasıdır. Böhran həll edilməyə başlayandan sonra Türkiyə də daxil olmaqla, bölgə ölkələrinə sığınan və qaçan suriyalı qaçqınlar müəyyən proqram əsasında geri dönəcək".

## "Taliban"ın daha bir lideri öldürüldü

**"Taliban" hərəkatının daha bir lideri öldürülüb. Axar.az xəbər verir ki, bu barədə informasiyanı "Sinxua" agentliyi yayıb. Agentlik öldürülən şəxsin adının Molla Asmatulla olduğunu bildirib. O özünün iki cangüdəni ilə birgə qətlə yetirilib. Asmatulla Əfqanıstanın Qunduz vilayətinə nəzarət edən briqada komandiri olub.**

Qeyd edək ki, son günlər "Taliban"ın Əfqanıstanda aktivliyi artıb. Artıq terror təşkilatı ölkənin 30%-nə nəzarət edir.



## İlhamə Quliyevanın sabiq köməkçisinin məhkəməsi başladı

**Avqustun 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində mərhum xalq artisti İlhamə Quliyevanın sabiq köməkçisi Mehriban Hüseynovanın cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib. Virtualaz.org bildirir ki, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.**

Prosesdə M.Hüseynovanın vəkili Vasif Mirzəyev vəsatətlə çıxış edib.

Vəkil hüquqlarını müdafiə etdiyi şəxsin barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsini və cinayət işinə xitam verilməsini istəyib. Vəsatətlər təmin edilməyib.

Məhkəmənin baxış iclası avqustun 23-nə təyin edilib.

Qeyd edək ki, xalq artisti İ.Quliyevanın sabiq köməkçisi M.Hüseynova 2015-ci il oktyabr ayının 21-də həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin 29,180.3.2-ci (soyğunçuluğa cəhd, zərərçəkmiş şəxsə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. 2016-cı il fevral ayının 13-də Səbail Rayon Məhkəməsində M.Hüseynova barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti üç ay uzadılıb.

Xatırladaq ki, İ.Quliyeva 2016-cı il fevral ayının 25-də səhər saatlarında 73 yaşında dünyasını dəyişib.

## Qarabağdakı vəziyyət BMT BA-nın 71-ci sessiyasının gündəliyinə salındı

**"Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" və "GUAM məkanında dondurulmuş münaqişələr, onların sülh, beynəlxalq təhlükəsizlik və inkişaf üçün fəsadları" adlı qətnamə layihələri BMT Baş Assambleyasının 71-ci sessiyasının gündəliyinə salınıb.**

APA-nın məlumatına görə, gündəliyin hələlik son versiyası təsdiqlənməyib.

Bildirilir ki, "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə layihəsi BMT Baş Assambleyasının 70-ci sessiyasının gündəliyində olsa da, müzakirəyə təqdim olunmadığı üçün ötən il olduğu kimi bu il də növbəti sessiyanın gündəliyinə də daxil edilib.

Qeyd edək ki, BMT Baş Assambleyasının 71-ci sessiyası 13-26 sentyabr tarixlərində BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında baş tutacaq. Azərbaycan prezidenti İlham Əliyev və xarici işlər naziri Elmar Məmmədyarov ənənəvi olaraq hər il BMT Baş Assambleyasının sessiyasına qatılırlar.



## Xədicə İsmayılın apelyasiya şikayəti təmin edilməyib

**Bakı Apelyasiya Məhkəməsində jurnalist Xədicə İsmayılın ölkədən çıxışına qadağa ilə bağlı məhkəmə qərarından verilən apelyasiya şikayətinə baxılıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Vaqif Mursaqulov sədrlik edib. Prosesdə qərar elan olunub. Qərara görə, apelyasiya şikayəti təmin edilməyib, qərar dəyişdirilmədən saxlanılıb.

Xatırladaq ki, X.İsmayıl sınaq müddəti dövründə Azərbaycan Respublikası hüdudlarından çıxışına qoyulan qadağanın götürülməsinə dair Binəqədi Rayon Məhkəməsinə müraciət edib. Məhkəmə jurnalistin şikayətini təmin etməyib. O, həmin qərardan apelyasiya şikayəti verib.

Qeyd edək ki, 2014-cü ilin dekabrında həbs edilən X.İsmayıl Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə - külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunub. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il 5 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan X.İsmayıl apellyasiya şikayəti verib. Bakı Apellyasiya Məhkəməsi şikayəti təmin etməyib.

Mayın 25-də Ali Məhkəmə X.İsmayıla 3 il 6 ay şərti həbs cəzası verilməklə azadlığa buraxılması haqda qərar qəbul edib və o, azadlığa buraxılıb.

## Türkiyənin Avstriyadakı Mədəniyyət Mərkəzini yandırmaq istədilər

**Avstriyanın şimal-qərbində yerləşən Vels şəhərində Türkiyənin Mədəniyyət Mərkəzini yandırmağa cəhd edən iki nəfər saxlanılıb.**

"Report" xəbər verir ki, onlar avqustun 15-də səhər saatlarında hadisə yerində tutulublar.

"Yandırıcı maddə ilə dolu olan qurğu mərkəzin binasının pəncərəsindən içəri atılıb. Qurğu öz-özünə sönüb. Xəsarət alan olmayıb. Hadisə nəticəsində mərkəzə, demək olar, ziyan dəyməyib", - deyə yerli polis bildirib.

YENİ MÜSAVAT
N 179 (6500) 16 avqust 2016

**AXCP sədri Əli Kərimlinin həbsdə olan qaynı Elnur Seyidovun ölümlə hədələnməsi barədə yayılan xəbərlər gündəmdən düşmür. 13 saylı cəzaçəkmə müəssisəsində məhbus həyatı yaşayan Seyidovla şənbə günü vəkili Fəxrəddin Mehdiyev görüşüb.**



# Əli Kərimlinin qaynının ölümlə hədələnməsi iddiasına rəsmi reaksiya

## Penitensiar Xidmət məlumatı təkzib edir; sabiq rəis də xəbərin doğruluğuna inanmır; vəkili Elnur Seyidovla görüşüb

Vəkil görüşdən sonra mətbuata açıqlamasında E.Seyidovun özünü normal hiss etdiyini və ölümlə təhdid olunmasını ona anlatdığını bildirib. F.Mehdiyev onu da qeyd edib ki, hüquqlarını qoruduğu şəxs həyatına olan təhdidin detallarının hələlik mətbuata açıqlanmasını istəməyib. Həmçinin vəkil E.Seyidovun "kars"a salınması xəbərini də təsdiqləməyib. F.Mehdiyev zərurət yaranacağı halda mətbuata əlavə məlumat verəcəklərini bildirib.

Yayılan xəbərlərlə bağlı Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin mövqeyini aldıq. **Qurumun mətbuat katibi Mehman Sadıqov** "Yeni Müsavat"a açıqlamasında məlumatı təkzib etdi: "İlk olaraq, bu məlumatı "Azadlıq" qəzeti yazmışdı. Gecə dərhal məlumatı araşdırdım. Məlum oldu ki, onun həyatına heç bir təhlükə yoxdur. Kimsə də, onu ölümlə hədələmir. Sadəcə daxili rejim qaydaları ilə bağlı bəzi məqamlar var idi. Onu da yoluna qoyduq. Həmin günün səhərisi məhkumun vəkili cəzaçəkmə müəssisəsinə gəlib, vəkilin qəbulunda olub. Birlikdə söhbət ediblər. Məhbusa daxili nizam-intizam qaydaları bir daha izah olunub. Hazırda orada hər hansı bir problem yoxdur. Onun ölümlə hədələnməsi, təhqir olunması tamamilə absurd xəbərdir. Belə bir hal ola da bilməz. Çünki biz nəinki həmin məhbusun, cəzaçəkmə müəssisələrində saxlanılan bütün məhbusların təhlükəsizliyinə zəmanət verməşik. Daim təhlükəsizlik yüksək səviyyədə təmin olunub. Bu məsələ ilə bağlı bizə müraciət edən media nümayəndələrinin suallarını cavablandırmışıq. Biz Penitensiar Xidmət olaraq, bütün mətbuat orqanlarına daim açıq olmuşuq. Bundan sonra da belə olacaq. Baş verən bütün hadisələrlə, eləcə də keçirdiyimiz bütün tədbirlərlə bağlı ictimaiyyəti məlumatlandırmışıq".

**Penitensiar Xidmətin sabiq rəisi Məmməd Zeynalov həbsxanalarda məhbusların öldürülməsi hallarının zaman-zaman olduğunu bildirdi:** "Məhbusları siyasi proseslərə cəlb etmək çox çətindir. Bu baxımdan, hesab edirəm ki, hansısa bir söz şəklində, yaxud bir hərəkətlə belə bir təhdid halı olsun. Amma bir məhbus tərəfindən bunun həyata keçirilməsi mümkün deyil. Çünki sonda dustaq pis vəziyyətdə qala bilər. Məhbusun məhbusu öldürməsi halları çox olub. Amma kiminsə sifarişi ilə dustağın siyasi sifariş yerinə yetirdiyini praktikamda görməmişəm. Yəni siyasi proseslərə məhbuslar qoşulmurlar. Məhbus məhbusu şəxsi ədavətlə öldürə bilər. Birinin sifarişi ilə məhbus digərini ona görə öldürməyə cəsarət etmir ki, səhərini düşünür. Bunun məhkəməsi, cəzasının artırılması kimi mərhələləri var. Bu baxımdan, məhbus ömründə o riskə getməz. Buna görə Elnur Seyidovun hədələnməsi real görünmür. Ümumiyyətlə, nə rəis belə bir sifariş verməyə cəsarət edər, nə də məhbus bunu icra etməyə. Burada inam məsələsi öndədir. Böyük məsələlərdən söhbət gedəndə məhbusun inamsızlığı daha çox olur".

Xatırladaq ki, Elnur Seyidov 2012-ci ilin martında "Texnikabank" işinə görə həbs edilib. O, 7 il 6 ay azadlıqdan məhrum edilib. Səhhətində ciddi problemlər olan AXCP sədrinin qaynı təhlükəli xəstəliklər kateqoriyasına aid edilən dağınıq sklerozdan əziyyət çəkir.

❑ **Cavanşir ABBASLI**

# YAP-ın Ağdam təşkilatının yeni sədri müsavatçıdır?

## Bu barədə mətbuatda xəbərlər yayılıb; Müsavatın Ağdam təşkilatının qurucusu xəbəri təkzib edir

**YAP-ın Ağdam rayon təşkilatına sədr təyin edilən Ağa Qəzənfər oğlu Zeynalovun əvvəllər Müsavat Partiyasının üzvü olması barədə mətbuatda xəbərlər dolaşır. Bu barədə ilk xəbəri "Azadlıq" qəzeti yayıb. Məlumatda bildirilir ki, uzun müddət Ağdamın Qaradağlı orta məktəbinin direktoru işləyən A. Zeynalov həmin vaxt Müsavatın üzvü olub və edilən təzyiqlər qarşısında əqidəsini dəyişib YAP-a keçməyib. 2009-cu ildə Ağdam rayonuna icra başçısı təyin edilən Nizami Sadıqovun onu icra hakimiyyətində ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifəsinə gətirdiyi, məhz elə həmin gündən onun hakim partiyaya üzv olduğu yayılan xəbərlər sırasındadır.**




Xəbəri dəqiqləşdirmək üçün Müsavatın Ağdam təşkilatının qurucusu, son qurultaydan sonra partiya sıralarından xaric olunan Əlövsət Əhədoğlu ilə əlaqə saxladıq. O, yayılan xəbəri yalanladı: "Heç vaxt o, Müsavatın üzvü olmayıb. Mətbuatda gedən məlumatlar yanlışdır. "Azadlıq" qəzetinə neçə dəfə zəng edib, bu barədə məlumat vermək istədim ki, yanlışlığı düzəltsinlər. Çünki ən azından Ağdamda yaşayanlar bilirlər ki, bu informasiya düzgün deyil. Dəfələrlə zəng etsəm də, əlaqə yarada bilmədim. Bu xəbər dezinformasiyadan başqa bir şey deyil. Əgər onu şəxsi üzv kimi qəbul etmək lazım gəlsəydi, mən qəbul edərdim. Mənim də yaddaşımda belə bir şəxs yoxdur. Rayonla məlumatı dəqiqləşdirəndə oradan mənə dedilər ki, belə bir hal heç vaxt olmayıb. Müsavatın Ağdam təşkilatını mən qurmuşam. Əvvəlcə təşəbbüs qrupu yaradılıb və onun sədri olmuşam. Sonradan da rayon təşkilatının 2 il sədri olmuşam. Sonralar da baş verən proseslərdə iştirak etmişəm. Dəqiq məlumatdır ki, o şəxs təşkilatın üzvü olmayıb. Sadəcə, onun AXCP üzvü olan, partiyanın tanınmışlarından sayılan bir şəxslə yaxın dostluğu olub, hətta qonşu olublar. Baxışları fərqli olsa da, bu, dostluqlarına kölgə salmayıb. Ola bilsin ki, bu xəbər oradan qaynaqlanıb. Əks halda, bu məlumatın başqa bir mənbəyi yoxdur. Həmin şəxsi tanıyıram, amma partiya üzvü kimi yox. Onun icra hakimiyyətində işlədiyini əvvəlcədən bilirdim. Amma müxalif meylli bir qurumun üzvü olduğunun şahidi olmamışam. Yaxından onunla söhbətim olmadığına görə müxalif fikirlərinin olduğunu deyə bilmərəm".

❑ **Cavanşir ABBASLI**



# "Bir adamda bir xəstəlik olar, uzağı iki..."

## Gülər Əhmədova Berlində bir neçə xəstəlikdən müalicə alır

**Sabiq deputat Gülər Əhmədova müalicə olunmaq üçün hazırda Berlin şəhərindədir. Qeyd edək ki, keçmiş deputat bir müddət öncə məhkəmədəki çıxışı zamanı bir neçə xəstəlikdən əziyyət çəkdiyini, talassemiya daşıyıcısı olduğunu söyləmişdi. O, məhkəmədən xaricdə əməliyyat olunmaq üçün ölkədən çıxışına icazə verilməsini istəmiş və buna qismən nail olmuşdu.**

G.Əhmədova məhkəmədə onu da bildirmişdi ki, 2001-ci ildən onkoloji xəstəlikdən əziyyət çəkir, 24 yaşında kliniki ölüm keçirib, 2001-ci ildə Moskvada Onkologiya Mərkəzində əməliyyat olunub, ardınca Türkiyədə şüa terapiyası alıb. Daha sonralar deputat olduğu dövrdə də xaricə müalicəyə gedib-gəlib.

İyulun 12-də Bakı Apelyasiya Məhkəməsində eks-deputat Gülər Əhmədovanın Azərbaycandan kənara çıxmasına qoyulmuş qadağanın götürülməsi barədə vəsatətə baxılıb və ona üç ay müddətinə Azərbaycan hüdudlarından kənara çıxmasına icazə verilib.

Hazırda isə sabiq deputat Berlində müalicəsinə başlayıb. "Yeni Müsavat" onunla durumu, müalicəsi ilə bağlı məlumat almaq üçün əlaqə saxlamağa cəhd etsə də, buna nail olmayıb. Amma Gülər xanım sosial şəbəkədə yazdığı son statuslarından birində səhhəti ilə bağlı aşağıdakıları yazıb: "Ədalət budur ki, bir adamda bir xəstəlik olar, uzağı iki... Rəhmətlik Hacıbaba Bagırov demişkən, "" beylə mal olar?" ( bu qədər xəstəlik olar? Deməli, dunyada hər şey qanunauygun hərəkət edir. Ömur boyu bir cox insanın yükünü cək, xəstəlik də düjünlə..(?)hec nə tək- tək deyil. Az qalmışdı, həkimə deyəm""əə, bir- bir!!""( sitat mənə məxsus deyil)".

Bundan başqa, G.Əhmədova son günlər sosial şəbəkədə bir qayda olaraq xəstəliklər, onların müalicə üsulları, hansı qidanın hansı xəstəliyə faydalı olması barədə məlumatlar paylaşır.

❑ **S.TELMANQIZI**

# Azərbaycanı Türkmənistanla bərabərləşdirməyə nə mane olur?



**Hüseynbala SƏLİMOV**

**Həyat insanla zarafatlaşmağı sevir. Bütün ömrün boyu mürəkkəbliklərə və qəliz məsələlərə can atır, elmə və fəlsəfəyə baş vurursan. Amma axırda məlum olur ki, o şeyi ki, sən axtarırsan, o, kiçik bir şeirdə, çox kiçik bir rübaidə və yaxud da M.F.Axundovun dediyi kimi, bir təmsilatda ifadə olunub...**

Elmin, fəlsəfənin və hikmətin, elə həyatın əlçatmaz sirri də elə bəlkə bundadır - böyük həqiqətlərə çatmaq üçün böyük yol qət etmək lazımdır. Amma ən son anda bəlli olur ki, ən böyük hikmət qarşındakı ağ vərəqdədir və yaxud da ki, bu ağ vərəqdə yazılmış bir-iki sətirdədir...

Bəli, deyəcəksiniz ki, bu adam yenə də fəlsəfəyə vardı. Amma Azərbaycan elə ölkədir ki, siyasətdən yaza-yaza adam axırda dönüb lap "filosof" olur...

Elə bu səbəbdən də çatdırmaq istədiyim mətləbi adicə sualla başlayıram. Lap İ.Krılovun təmsilində deyildiyi kimi: Bulağın ayağında dayanaraq suyu bulandırmaq olarmı?.. Özüm də cavab verirəm ki, başqa yerləri və məmləkətləri deyə bilmərəm, amma Azərbaycanda olar və hətta çox asan məsələdir...

Ona görə ki, bu ölkədə adama qarşı bir gün dünyanın heç bir ölkəsində ağla da gəlməyən ittiham irəli sürə bilərlər...

Elə o üzdən bu günlərdə daha bir haqsızlıq haqqında oxuyanda İ.Krılovun təmsili yadıma düşdü. Bir daha anladım ki, buralarda "quzu" olmaq çox böyük dərd imiş...

Bəli, İ.Krılov deyirdi ki, güclünün qarşısında gücsüz həmişə təqsirkardır. O sarıdan da gərək, çalışıb güclü olasan, ya da ki, aqibətinlə barışasan...

Qərəz, bir də görürsən, hamıda belə təsəvvür yaranır ki, bəli, deyəsən, mülayim bir siyasət dövrü gəlir. Amma heç bir ay keçmir ki, azad olunan insanların, məhbəs həyatından qurtulanların yerini başqaları tutur. Bunu da belə də yozmaq olardı ki, haqsızlığa qarşı mübarizə davam edir və insanlar birdəfəlik ağ bayraq qaldırmaq istəmir...

Amma bunun digər yozumu da var ki, onu heç dilə gətirmək istəmirsən. O da budur ki, çox təəssüf, bu ölkədə getdikcə daha çox adamın yolu "o tərəflərə" düşsə də, daha çox adamın adı siyasi məhbusların siyahısında hallansa da, "bu tərəflər"də hər şey köhnə vaxtlardakı kimi qalır...

O səbəbdən bu ölkədə nə vaxtsa siyasi islahatlar aparılacağına ümidimi tamam itirmişəm. Etiraf edirəm, heç əvvəllər də belə ümidlərə qapılmırdım. Əslində bu ölkədə demokratiya heç bir vaxt olmamışdı və bunu bütün səmimiliyi ilə deyirəm. Sadəcə, müxtəlif dövrlərdə cəmiyyət demokratiyaya münasibətdə müxtəlif reaksiyalar təzahür etdirirdi. Bəli, bu reaksiya azala-azala gəldi və bu gün demək olar ki, tamam etinasızlıq və biganəlik həddinə çatdı...

İndi ayrı-ayrı insanlar, fərdlər nəyəsə cəhd edir, ölkənin tamam, büs-bütün Türkmənistana çevrilməsinin qarşısını almağa çalışırlar. Əslində biz indi Türkmənistanı da bir neçə parametrə görə geridə qoymuşuq...

Buranın Türkmənistanla fərqi yalnız bilirsiniz nədədir? Siyasət həmin siyasətdir və hakimiyyət həmin hakimiyyətdir, sadəcə, cəmiyyət tamam həmin türkmən cəmiyyəti deyil....

Fərq yalnız bundadır... Yalnız və yalnız ayrı-ayrı fədakar insanlar Azərbaycanla Türkmənistan arasında birdəfəlik bərabərlik işarəsini qoymağa imkan vermirlər. Bizim də üzümüz yalnız və yalnız onların sayəsində ağdır. Amma bu, həmin insanlara, necə deyər, çox baha başa gəlir və getdikcə daha çox fədakarlıq hesabına mümkün olur...

Ən dəhşətlisi isə budur ki, indi heç nədən, adi bir sözə görə də "yanmaq" olar. Bəli, adi bir sözə, adi bir hərəkətə görə dəmir qəfəs arxasına düşmək mümkündür. Bu özü isə o deməkdir ki, rejim getdikcə avtoritarlaşır və getdikcə daha dözümsüz olur.

Elə İ.Krılovdan təmsili də nahaq yerə sitat gətirmədim. Məsələn, on il, on beş il bundan əvvəl etdiyin etirazı bu gün etsən, bəlkə də adamı dara çəkərlər...

Eləcə də bu gün etdiyini on, on beş il bundan əvvəl etsəydin, bəlkə də adama heç toxunmazdılar!..

Bunu heç də insanların şücaətinə və fədakarlığına şübhə salmaq cəhdi kimi yozmaq lazım deyildir. Bir az əvvəldə dedim ki, yalnız belə insanların hesabına hələki Türkmənistanla Azərbaycan arasında tamam bərabərlik və eynilik işarəsi qoymaq olmur. Amma biz hamımız getdikcə daha çox yel dəyirmanı ilə vuruşan Don Kixotlara bənzəyirik...

Bəlkə də on il bundan sonra indiki çağlar da daha demokratik görünəcək, necə ki, bizə on beş, iyirmi il bundan əvvəlki vaxtlar əsl azad dövranlar kimi görünür! Allah belə aqibətdən qorusun!.. Ona görə ki, hətta məzarda da rahat olmayacağıq və bir sual bizə dinclik verməyəcək. O sual da budur ki, kişilər, övladlarınıza hansı dövləti və ya hansı siyasi sistemi miras qoyub getdiniz?..

YENİ MÜSAVAT
N 179 (6500) 16 avqust 2016

**Ötən ilin oktyabrında Milli Təhlükəsizlik Nazirliyində (MTN) nazir Eldar Mahmudovun qovulması ilə başlanan "təmizləmə"lər davam edir. Ötən müddət ərzində Milli Təhlükəsizlik Nazirliyi bir qurum olaraq ləğv olunub, bazasında yeni 2 qurum yaradılıb. Bu gün MTN generallarının, idarə rəislərinin bir çoxu həbsdədir. "Təmizləmə"lər başlanan ilk gündən Eldar Mahmudovun taleyi haqda rəsmi məlumat verilmir.**

# Eldar Mahmudovun həbsinə hazırlıqlar başladı-ifadələr toplanır

## Sabiq nazirin əleyhinə ifadələri rəsmiləşdirməyə başlayıblar; Mahmudovu bugünlərdə qandallaya bilərlər



Qeyri-rəsmi məlumatlara görə, sabiq nazir işdən çıxarılandan dərhal sonra telefonları əlindən alınaraq nəzarət altında Badamdardakı dəbdəbəli imarətinə aparılıb. Bir neçə gün sonra isə Bilgəhdəki bağına köçürülüb. Sabiq nazirin bu gün də orada saxlanıldığı bildirilir. E.Mahmudovun statusu haqda da rəsmi məlumat verilmir. Qeyri-rəsmi məlumatlara görə, sabiq nazirin barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

Onun "MTN işi" üzrə istintaqa cəlb ediləcəyi işdən çıxarıldığı ilk gündən söylənilsə də, hələlik bu məsələ də konkretləşməyib. Eldar Mahmudovun nazir işlədiyi dövrdə MTN-də yüksək vəzifə tutan generalların həbsindən sonra belə xəbərlər yayılmışdı ki, sabiq naziri əlindəki kompromatların yayılacağı qorxusu qarşısında həbs etmirlər. Çox keçmədi ki, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu mətbuata açıqlama verərək bildirdi ki, Eldar Mahmudovun əlində 2800 ədəd seks videosu var. Bugünlərdə isə Eldar Mahmudov üçün gizli çəkilişlər edən şirkətin adı da açıqlanıb. Gununsesi.info son illər ərzində MTN rəhbərliyi ayrı-ayrı vəzifəli adamları, biznesmenləri seks videoları ilə şantaj edib, onlardan külli miqdarda pul aldığını qeyd etməklə Eldar Mahmudovun "video əməliyyatları" ilə bağlı sensasion məlumat yayıb. Sayta daxil olan məlumatda qeyd olunur ki, bir neçə il əvvəl Bakıdakı restoran, hotel və milyonçuların villasında elektrikləşməni aparan məşhur türk şirkəti "Babil Elektirik"in ölkəmizdəki rəhbərliyi MTN-in "toruna düşüb". Şirkətin Azərbaycanda qalıb fəaliyyət göstərməsi isə yalnız MTN rəhbərliyinin şərtləri daxilində mümkün olub. Bundan sonra şirkət MTN-dən gələn siyahı əsasında həmin obyektlərin elektrikləşməsi zamanı gizli kameraları quraşdırıb. Bundan sonra MTN asanlıqla imkanlı adamların şəxsi həyatını nəzarətə götürə bilib. Saytımızı bilgiləndirən mənbə onu da qeyd edib ki, "Babil Elektirik" hazırda Bakıda fəaliyyətini dayandırıb.

Bu məlumat E.Mahmudovun əlində gizli şəkildə çəkilmiş, kompromat xarakterli 2800 ədəd seks videosunun olması haqda məlumatları bir daha təsdiqləyir. E.Mahmudovun belə kompromatların üzərindən həbsdən kənar qala bildiyi nəticəsinə gəlməyə yol açır.

Bununla belə, "Yeni Müsavat"a sabiq nazirin həbsi üçün müəyyən hazırlıqların görülməsi xəbərləri də gəlməkdədir. İstintaqa yaxın mənbənin sözlərinə görə, "MTN işi" istintaq olunandan son günlərə qədər həbsdəki MTN-çilərin, şahidlərin, zərərçəkənlərin Eldar Mahmudovun əleyhinə ifadələri protokollaşdırılmayıb, qeydə alınmayıb. Artıq vəziyyət dəyişib və sabiq nazirin əleyhinə olan ifadələr də qeydə alınmağa başlayıb. Cinayət işinin yeni mərhələyə keçdiyi qeyd olunur. Bildirilir ki, istintaq qısa müddətdə sabiq nazirin əleyhinə olan, onun qollarına qandal vurulması üçün bəs edəcək qədər ifadələr toplanıb, rəsmiləşdirib.

Bu arada MTN-in Əməliyyat-Texniki İdarəsinin sabiq rəisi, general-mayor Natəvan Mürvətova istintaq tərəfindən dindirilib. Xanım general istintaqa ifadəsində sabiq nazir Eldar Mahmudov və onun müavini olmuş Hilal Əsədovun əleyhinə ifadə verib. Natəvan Mürvətova rəisi olduğu idarənin vəzifəli şəxsləri qanunsuz dinləməsi barədə suallara cavab verərkən, tapşırığı nazir və onun müavini olmuş Hilal Əsədovdan aldığını deyib.

Öz işçilərinin ifadələrindən başqa sabiq nazirin əleyhinə olan, onun həbsi üçün ciddi əsaslar yaradan şikayətlər də araşdırılmaqdadır. Azərbaycanda məşhur olan AER dondurma şirkətinin faktiki sahibi Adil Şərifovun şikayəti də bu qəbildəndir. İş adamının MTN tərəfindən müflis edilməsi isə AER dondurma fabrikinin yerləşdiyi mülkün özəlləşdirilməsi prosesi ilə başlayıb.

Fabrikin faktiki rəhbəri Dövlət Əmlak Komitəsinin rəsmisi Rafiq Cəlilovla ilkin razılaşma zamanı obyektin 100 min manata özəlləşdirilməsi barədə razılıq əldə edib. Sonradan bu rəqəm 3 dəfə dəyişib. Qiyməti 300 min manata qaldıran Əmlak Komitəsinin rəhbərliyi şirkətdən daha sonra 650 min manat alıb. Özəlləşmə bitəndən bir neçə gün sonra iş adamı MTN-ə, odioz general Akif Çovdarovun qəbuluna çağırılıb. Ehtimallara görə, iş adamının imkanları barəsində informasiyanı MTN-ə Əmlak Komitəsinin rəhbərliyi ötürüb. Adil Şərifovu MTN-də Akif Çovdarovun otağına aparıblar. Kabinetində Adil Şərifovu ağır söyüşlərlə qarşılayan A.Çovdarov "sən qudurmusan, 650 minə obyekt özəlləşdirirsən" deməklə ondan bu pulları haradan almasını soruşub. 1 gün iş adamını MTN-də saxlatdıran Akif Çovdarov çıxış yolu kimi ona "Nikoil" banka getməsini və mənzillərini, avtomobillərini girov qoyub kredit almasını tələb edib. Həbs hədəsindən çəkinən Adil Şərifov Akif Çovdarovla razılaşmalı olub və banka gələrkən bütün sənədlərin hazır olduğunu görüb. 500 min manatlıq kreditə imza atan iş adamı həmin pulların bankdan elə Akif Çovdarovun adamları tərəfindən aparıldığının şahidi olub.

**İşçilərinin bir-birinin ardınca Eldar Mahmudun üzünə dayanması, onun 11 il rəhbərlik etdiyi qurumdan şikayətçilərin isə saysız-hesabsız olması yaxın perspektivdə sabiq nazirin həbsi ehtimalını artırır.**

❑ E.MƏMMƏDƏLİYEV

# Cahangir Hacıyev ilk dəfə hakim qarşısına çıxarıldı

## "Beynəlxalq Bank işi" vəkilə görə təxirə salındı

**Avqustun 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Azərbaycan Beynəlxalq Bankı ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və digər 7 şəxsin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**



Xatırladaq ki, təqsirləndirilən şəxslərdən 3-ü Beynəlxalq Bankın Mərkəzi filialının direktorları olmuş İlqar Abdullayev və Yusif Ələkbərov, bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İbrahim Hüseynovdur.

Qeyd edək ki, C. Hacıyev və digər 7 nəfər Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-c ü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, ilk prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin hazırlıq iclasında məlum olub ki, İbrahim Hüseynovun müdafiəçisi məhkəmədə iştirak etmir. Məhkəmə prosesinə sədrlik edən hakim Əfqan Hacıyev bildirib ki, həmin vəkillə əlaqə saxlanılsa da, o, rayonda olduğuna görə prosesə qatıla bilməyəcəyini deyib.

Prosesin davam etdirilməsi üçün məhkəmə dövlət hesabına vəkil təyin edilməsini təklif edib. Lakin İbrahim Hüseynov bu təklifdən imtina edib və öz vəkili olduğunu, onun növbəti iclasa qatılacağını bildirib.

Qeyd edək ki, bu mühafizə şirkəti bankın inzibati binalarının mühafizəsini həyata keçirib. Bu halda məhkəmənin davam etdirilməsinin mümkünsüz olduğunu deyən hakim hazırlıq iclasının avqustun 17-nə qədər təxirə salınması barədə qərarı elan edib.

Xatırladaq ki, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sabiq sədri C.Hacıyev və digər 7 şəxsin Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işinin istintaqı yekunlaşaraq təqsirləndirilən şəxslər, onların müdafiəçiləri iş materialları ilə tanış edilib və iş üzrə ittiham aktı Baş Prokurorluq tərəfindən iyulun 19-da təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Onu da əlavə edək ki, C.Hacıyev ləğv edilmiş MTN-in rəhbəri olmuş Eldar Mahmudovun qudasıdır.

**Məhkəmə prosesində təqsirləndirilənlərin yaxınları da iştirak edib. Cahangir Hacıyevin yaxınları arasında onun bacısı Əminə Hacıyeva da məhkəmə prosesində iştirak edənlərdən olub.**

❑ İlkin MURADOV

# Nazir idarə rəislərinə töhmət verdi



Heydər Əsədov

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin bu ilin birinci yarısında fəaliyyətinin yekunlarına dair kollegiya iclası keçirilib. Bu barədə virtualaz.org saytına nazirlikdən məlumat verilib.**

Kollegiyanın qərarı ilə işdə yol verdiyi ciddi nöqsanlara görə Bakı-Abşeron rayonlararası bitkilərin karantini məntəqəsinin müdiri və əmək funksiyalarını lazımi səviyyədə yerinə yetirmədiklərinə görə həmin məntəqənin 3 aparıcı müfəttişi vəzifələrindən azad edilib, 6 rayonlararası bitkilərin karantini məntəqəsinin müdirinə və 3 nəfər rayon bitki mühafizə mərkəzinin rəisinə sonuncu xəbərdarlıq şiddətli töhmət, 12 rayon bitki mühafizə mərkəzinin rəisinə töhmət verilib, 10 rayon bitki mühafizə mərkəzinin rəisinə isə xəbərdarlıq edilib.

Kollegiyada Dövlət Fitosanitar Nəzarəti Xidmətinin strukturunun təkmilləşdirilməsi ilə bağlı müvafiq qərar qəbul edilib. Nazir Heydər Əsədov Dövlət Fitosanitar Nəzarəti Xidməti tərəfindən əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi, ölkədə fitosanitar vəziyyətin sabitliyinə nəzarətin gücləndirilməsi, kadr hazırlığının səviyyəsinin yaxşılaşdırılması, şəffaflığın və hesabatlılığın daha da artırılması məqsədi ilə konkret tapşırıqlar verib.

YENİ MÜSAVAT
N 179 (6500) 16 avqust 2016

## Rusiya regiondakı hərbi-siyasi oriyentirini dəyişir?



# "Kreml Ermənistanı müdafiəsiz qoyur" - Şoyqunun qəfil Bakı səfərində iki hədəf

### Rusiya və Azərbaycan hərb nazirlərinin bir günlük fasilə ilə qarşılıqlı səfərlərinin pərdəarxası; işğalçı ölkəni təlaşa salan daha bir qalmaqallı olay; erməni KİV-i: "Rusiya Azərbaycanı yeni müharibəyə hazırlayır..."

**Rusiya müdafiə naziri Sergey Şoyqunun Azərbaycana iki günlük işgüzar səfəri başa çatıb. Səfər çərçivəsində nazir prezident İlham Əliyev və azərbaycanlı həmkarı Zakir Həsənovla görüşüb.**

Şoyqunun kifayət qədər qəfil sayıla biləcək Bakı səfəri ilə bağlı Rusiya Müdafiə Nazirliyinin səfər öncəsi yaydığı rəsmi açıqlamada görüşlərdə hərbi-texniki əməkdaşlıq və Qarabağ probleminin müzakirə olunacağı, habelə beynəlxalq və regional təhlükəsizlik məsələlərinin diqqət mərkəzində olacağı deyilirdi. Gündəlik tam təsdiqini tapdı.

*****

Avqustun 14-də prezident İlham Əliyev S.Şoyqunu qəbul elədi. Artıq xəbər verildiyi kimi, dövlət başçısı görüşdə prezident Vladimir Putinin Azərbaycana son səfərinin uğurla keçdiyini vurğulayaraq səfər zamanı iki ölkə prezidentlərinin görüşündə qarşılıqlı əlaqələrin geniş spektrini əhatə edən sahələrlə bağlı müzakirələr aparıldığını, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlığın uğurla reallaşdığını söyləyib. Prezident eyni zamanda Rusiya müdafiə nazirinin Azərbaycana səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

**Öz növbəsində rusiyalı nazir prezident Putinin Bakı səfərinin və səfər zamanı prezident Əliyevlə keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin, o cümlədən hərbi və hərbi-texniki sahədə əməkdaşlığın daha da genişlənməsi baxımından önəmini vurğulayıb.** "Rusiya və Azərbaycan hərbi idarələrinin hərbi və hərbi-texniki əməkdaşlığa dair müzakirə eləməli ortaq məsələlər var. İki ölkə hərbi idarələri qarşısında duran məsələlərə gəlincə, bugünkü və sabahkı işlərimizdə biz çalışacağıq ki, Rusiya prezidenti ilə Sizin hərbi və hərbi-texniki sahədə razılaşmanızın ehtiva elədiyi hər şeyi nəzərə alaq", - deyə Şoyqu Azərbaycan prezidentinə müraciətlə qeyd edib. Onun sözlərinə görə, hər iki tərəfin hərbi və hərbi-texniki sfera üzrə danışacağı, müzakirələr və yekunlar aparması üçün çoxlu mövzuları var.

Dünən səfərinin ikinci günü Şoyqu Zakir Həsənovla bir araya gəlib. Məlumata görə, nazirlərin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşündə Rusiya ilə Azərbaycan arasında hərbi-texniki sahədə əməkdaşlıq və Qarabağ münaqişəsinin həlli yolları əsas müzakirə mövzusu olub.

*****

Rusiya müdafiə nazirinin və prezident İlham Əliyevin açıqlamalarından da göründüyü kimi, Şoyqunun Bakı səfəri ilk növbədə iki ölkə arasında silah ticarəti sahəsində əməkdaşlığı davam etdirməklə bağlı olub. Əslində burada sensasion bir şey yoxdur. Çünki Putinin Bakı səfəri çərçivəsində onunla birgə Azərbaycanda olmuş Rusiya baş nazirinin müavini, hərbi-sənaye kompleksini kurasiya edən Dmitri Roqozin yeni müqavilələrin anonsunu artıq vermişdi. Yeri gəlmişkən, Roqozin 4 günlük aprel müharibəsindən sonra bəyan eləmişdi ki, Rusiya Azərbaycana silah satmaqda davam edəcək - hansı ki, müttəfiq Ermənistanda kəskin reaksiya doğurmuşdu.

Bundan az sonra Azərbaycanın müdafiə nazirinin Moskvaya yollanması, orada rusiyalı həmkarı ilə müzakirələr aparması, üstündən bir gün keçməmiş isə Sergey Şoyqunun Bakıya təşrif buyurması, əlbəttə ki, iki ölkə arasında hərb-texniki sahədə əldə olunan yeni anlaşmaların reallaşması ilə bağlı idi.

Bu anlaşmalar şübhəsiz ki, ən çox işğalçı Ermənistanda qıçıq qarışıq, narazılıq və narahatlıq doğurur. Buradaca onu da yada salaq ki, ötən həftə Moskvada prezident Serj Sərkisyanla birgə keçirdiyi mətbuat konfransında Putin erməni jurnalistin Kremlin Bakı ilə silah ticarəti içində olması ilə bağlı Ermənistanın narahatlığını ifadə edən sualına sərt cavab vermiş, Azərbaycana Rusiyadan silah tədarükünün davam edəcəyinə, bunun Ermənistana dəxli olmadığına açıq işarə vurmuşdu.

**Bu açıqlamadan cəmi bir neçə gün sonra isə S.Şoyqu Bakıya gəldi. İndi də erməni KİV-ləri bu səfəri və onun mümkün yekununu intensiv şərh edir. Təbii ki, əsas tənqidlər Moskvaya yönəlib. Məsələn, "Rusiya Azərbaycanı yeni müharibəyə hazıtrlayır?" başlıqlı məqalədə deyilir:** "Aprel müharibəsindən dərhal sonra Moskva bəyan elədi ki, Azərbaycanla hərbi-texniki əməkdaşlıq davam edəcək. Ancaq Ermənistana 200 milyon dollarlıq kredit həcmində vəd olunan silahlar hələ də verilməyib".

"Türkiyə və Azərbaycan qarşısında öhdəliklərini nəzərə alan Rusiya o halda Ermənistana müasir silahlar verə bilər ki, həqiqətən qərara alıb ki, münaqişə tərəflərinə təzyiq göstərməsin, yəni Ermənistanı güzəştlərə məcbur eləməsin, Azərbaycanı müharibəyə sövq eləməsin. Ya bəlkə Ermənistan silahlar o zaman veriləcək ki, buna ehtiyac qalmayacaq. Yoxsa Şoyqunun Azərbaycan rəhbərliyi ilə intensiv təmasları nə anlama gəlir?", - deyə müəllif sual edir.

Bu mövzuya həsr olunmuş başqa bir təhlili yazıda siyasi icmalçı Akop Bədəlyan yazır: "Rusiyaya eyni zamanda həm Ermənistanın, həm də Azərbaycanın müttəfiqi rolunu oynamaq müyəssər olmur. O, indi Ankara ilə münasibətləri normallaşdırmaqla bu dalandan çıxmaq istəyir. Amma belə görünür ki, Ankara bunun qarşılığında daha mürəkkəb bir məsələni - Qarabağa dair Ankara-Bakı-Moskva oxunun formalaşmasını tələb edir. Ancaq paralel olaraq Rusiya Azərbaycana alternativ təkliflər eləməlidir. İstisna deyil ki, bu, Azərbaycanın KTMT-də (Rusiyanın NATO-su- red.) assosiativ təmsilçiliyi ilə bağlıdır. Ola bilsin, Şoyqu KTMT nazirlərinin görüşünün gözlənildiyi İrəvandan öncə Bakıya baş çəkməklə göstərmək istəyir ki, Moskva üçün KTMT-nin Qafqaz oriyentiri və tərəfdaşı artıq İrəvan yox, Bakıdır".

*****

Rusiyalı nazirin Bakı səfərində tək silah məsələləri deyil, ikinci hədəf kimi məhz Qarabağ mövzusuna diqqət ayrılması əslinə qalsa, təəccüblü sayılmamalıdır. Hər halda, Türkiyə ilə münasibətlərin istiləşməsi Qarabağ probleminə də təsirsiz ötüşməyəcək. Kremlin bu məsələdən umduğu dividendlər isə təxmini bəllidir: ərazilərin azad olunması qarşılığında bölgəyə öz sülhməramlılarını yeritmək, Azərbaycanı Avrasiya layihələrinə, hətta KTNMT-yə qoşmaq.

Qalır bu kimi taleyüklü planları Bakı və Ankara ilə uzlaşdırmaq. Alınacaqmı? Ən önəmlisi, Kreml əraziləri boşaltmaq üçün İrəvana siyasi təzyiq yolu seçəcək, yoxsa Azərbaycanın əli ilə onu daha sərt şəkildə cəzalandırmaq variantını - misal üçün, apreldəki kimi?..

❑ **Analitik xidmət**

## Rusiya Xəzərdə genişmiqyaslı hərbi təlimlərə başladı




**Rusiya Xəzər donanmasının gəmiləri hərbi aviasiyanın da cəlb olunduğu genişmiqyaslı təlim döyüşlərində iştirak etmək üçün dənizə çıxıblar. Virtualaz.org bildirir ki, məlumatı «RİA Novosti» yayıb.**

Məlumata görə, gəmi heyətlərinin üzvləri dənizdə müxtəlif raket və artilleriya atışları həyata keçirəcəklər. Təlimlərə "Dağıstan" və "Tatarıstan" raket gəmiləri, "Velikiy Ustyuq", "Volqodonsk" və "Mahaçqala" kiçik raket və artilleriya gəmiləri, tral gəmiləri olmaqla, ümumilikdə 20 gəmi və kater cəlb olunub.

## Bu gün KTMT ölkələri Müdafiə Nazirləri Şurasının iclası keçiriləcək



**Avqustun 16-da İrəvanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin Müdafiə Nazirləri Şurasının iclası keçiriləcək.**

"Report" "Sputnik-Ermənistan"a istinadən xəbər verir ki, görüşdə iştirak etmək üçün Ermənistana Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan müdafiə nazirliklərinin nümayəndə heyətləri, eləcə də KTMT-nin baş katibi Nikolay Bordyuja və Birləşmiş Qərargahın rəisi, general-polkovnik Anatoli Sidorov gələcək.

Qeyd edək ki, KTMT-yə Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan daxildir.

## Rusiya Ukrayna ilə əlaqələrinin kəsilməsində maraqlı deyil



**"Heç kəs Rusiyanın Ukrayna ilə diplomatik əlaqələrinin kəsilməsində maraqlı deyil".**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov almaniyalı həmkarı Frank-Valter Ştaynmayerlə Yekaterinburqda görüşünün yekunlarına dair birgə mətbuat konfransında deyib.

"Fikirləşmirəm ki, biz kiminsə diplomatik münasibətləri kəsilməsində maraqlı olduğu vəziyyətdəyik. Mənə elə gəlir ki, indi emosiyalara qapılmaq, ekstremal fəaliyyət planlarına getmək olmaz. Əksinə, təmkinli olub vəziyyətin sabitləşməsini təmin etmək lazımdır", - deyə Rusiya XİN başçısı qeyd edib.

## Azərbaycana keçən Ermənistan vətəndaşı kimdir?




**"Azərbaycan hakimiyyət nümayəndələri Beynəlxalq Qızıl Xaç Komitəsini (BQXK) beynəlxalq sərhədi keçərək Azərbaycan ərazisinə daxil olan Ermənistan vətəndaşı haqda məlumatlandırıblar".**

Bunu APA-ya açıqlamasında BQXK Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib.

O qeyd edib ki, BQXK öz mandatına uyğun məsələni diqqətdə saxlayacaq.

Qeyd edək ki, erməni əsilli 1954-cü il təvəllüdlü Agetsyan Henrik Sayerbekoviç avqustun 7-də Sədərək istiqamətindən Naxçıvan Muxtar Respublikasına keçərkən Azərbaycan hərbçiləri tərəfindən saxlanılıb.

YENİ MÜSAVAT
N 179 (6500) 16 avqust 2016



# Altı min beş yüz dəfə qəzet çıxarmaq...

Samir SARI

**Bu, oxuduğunuz qəzetin 6500-cü sayıdır. Bu işin çətinliyini bilməyənlər deyəcəklər, nə olsun. O olsun ki, əməkdaşlarımız hesablayıblar, 27 ildə 6500 dəfə qəzet çıxarmaq zarafat deyil, bu işə ömür həsr etmək deməkdir.**

Bu, 6500 dəfə qəzetdə hansı yazının, xəbərin manşet olacağı üzərində düşünməkdir, 6500 dəfə sensasion material axtarmaqdır, 6500 dəfə fərəhləməkdir, 6500 dəfə məyus olmaqdan qorxmaqdır, 6500 dəfə hansısa müdhiş səhvin gedəcəyindən əndişə duymaqdır *(ən azı 650 dəfə o səhvin qarşısını ala bilməməkdir)* və s.

6500 dəfə qəzet çıxarmaq oxucular və qəzetdə adı çəkilənlər tərəfindən ən azı 6500 dəfə danlanmaq deməkdir. Hədələnmək, söyülmək kimi insani ünsiyyətlər bura daxil deyil Elə nömrələr olub ki, bircə yazıya görə səhərdən axşama qədər azı 65 dəfə zəng edib söyüblər.

Adı qəzetdə mənfi səciyyədə çəkilən və buna görə redaksiyaya gəlib "ölkədə biabır olmuşam, adam içinə çıxa bilmirəm" deyə jurnalistdən izahat, təkzib tələb edən şəxslərin iradları ilə yanaşı, təxminən 1234 dəfə "öncə", "önəmli", "derbi", "quşqulanmaq" kimi sözlərə görə bizi danlayanlar, məzəmmət edənlər, "dilimizi türk sözləri ilə korlayırsınız" deyənlər də olub. Bu uzun illərdə "spontan", "eskalasiya", "kreativ", "kosnpirativ" və sair bu kimi yüzlərlə əcnəbi sözə etraz edən görmədim, yetər ki, "önəmli" yazma, "prioritet" yaza bilərsən, amma "önəmli" olmasın.

16 il öncə qəzetin bir yazısına görə Moskvadan bir dəstə cangüdənlə Bakıya gələn və müəllifdən təkzib tələb edən, daha sonra "bu düzəliş mənə 40 min dollara başa gəldi" deyən həmvətənimiz vardı, dedik ki, "Moskvadan bir zəng də kifayət edərdi ki, qarşı tərəfin mövqeyini verək". Adama deyə bilmədik ki, rəhmətliyin nəvəsi, nə məcbur idi, bir dəstə adamla gəlib "Hyatt Regensy" otelinin kral suitlərində günü 400 dollara qalasanız.

Necə ola bilər ki, 6500 dəfə qəzet çıxarasan, amma heç olmasa 650 dəfə məhkəməyə verilməyəsən. Bunun dəqiq statistikasını aparmamışıq, amma illərlə davam edən məhkəmə çəkişmələrimiz olub. Düzdür, çoxunun axırı barışıqla qurtarıb, amma startda adətən belə hədələr olurdu: "Atamın oğlu deyiləm, qəzetinizi bağlatdırmasam", "Sizdən 100 min dollar təzminat almasam, bu kreslo mənə haram olsun" və s.

6500 dəfə qəzet çıxarmaq bəlkə də o qədər də çətin olmaz, amma qəzetin rəhbəri iki dəfə həbs olunanda və bir neçə yüz say onun birbaşa rəhbərliyi ilə çıxmayanda problem olur.

Redaksiyaya davaya gələn müəllimlərin reydindən təfərrüatlı yazsam, iki qəzet səhifəsi bəs eləməz. O vaxtlar məktəblərdə şagirdlərdən müxtəlif adlarla pul yığırdılar. Valideynlər şikayət edirdi, yazırdıq. Ertəsi gün 17-20 qadın və 3-4 kişi redaksiyaya gəlirdi. Kişilər dinmirdilər, amma qadınların təxminən 18-i eyni zamanda danışır, qışqırışırdılar. Əvvəlcə söyürdülər, sonra qarğışa keçirdilər, arada yumşalırdılar. Qəfildən yenidən hiddətlənirdilər. Lap axırda bizi anda verir, informasiyanı kimin ötürdüyünü öyrənmək istəyirdilər, istəkləri yerinə yetirilməyəndə bir partiya da var-yox söyüşü və əzizlərə dair qarğışlar edib gedirdilər.

Sonralar çarəsini tapdıq, məktəblərdə yığılan pullara dair yazanda məktəbin nömrəsini göstərmirdik. Çünki prezidentdən, baş nazirdən, parlamentin sədrindən, səhiyyə, təhsil, gömrük, vergi və s. nazirlərdən odioz oliqarxlardan, mafioz generallardan yazmaq o qədər də təhlükəli deyildi, amma bir məktəbdən yazmaq çox qorxuluydu. Redaksiyanı dağıda bilərdilər.

Qəzetdə buraxılan səhvlərə gəlincə, elələri var ki, burda yazmaq mümkün deyil. Amma səhv gedən şəkillər, bir hərfi düşmüş və tamam başqa, biabırçı məna verən sözlərlə bağlı saatlarla danışmaq olar. Məsələn, bir dəfə bir tanınmış adam bir rektor haqqında danışarkən demişdi ki, "mən o müəllimlə 10 il bir kafedrada işləmişəm". Qəzetdə gedən variantda isə "işləmişəm" sözündəki "I" hərfi düşmüşdü. Di gəl, düzəliş ver, bilməyənin də yadına sal. Üstəlik, nəyi düzəliş edəcəksən, adamlar on il eyni kafedrada çalışıblar, birlikdə çay da içiblər, çörək də yeyiblər...



# Rusiya Azərbaycanla yanaşı Türkiyəni də Avrasiya İttifaqına qoşmaq istəyir

## Sabiq baş nazirdən "çox qarışıq bir mərhələdəyik" bəyanatı

**Ermənistanın Avrasiya İqtisadi İttifaqına daxil olmasından sonra ölkənin iqtisadiyyatının səviyyəsi, nə əldə etməsi, nələri itirməsi ilə bağlı erməni cəmiyyətində müzakirələr başlayıb. Bir sıra ekspertlər, jurnalistlər, siyasətçilər prezident Serj Sərkisyanı Ermənistanı Avrasiya İttifaqına qoşmaqla böyük səhvə yol verməkdə ittiham edirlər. Açıq şəkildə bildirilir ki, Ermənistan Kremlin Avrasiya İttifaqı bataqlığına düşdü.**

Ermənistanda Avrasiya İttifaqına üzvlüyün davam etməsinin ölkənin xeyrinə, yoxsa zərərinə olduğu müzakirələrinin meydana gəldiyi bir vaxtda Azərbaycanın Avrasiya İttifaqına üzvlük məsələsinin yenidən aktuallaşacağı barədə xəbərlər yayılmaqdadır. Qeyd edilir ki, Türkiyə ilə Rusiya arasında münasibətlərin düzəlməsi Rusiya Azərbaycanın sözügedən ittifaq daxil olması məsələsini ciddi şəkildə gündəmə gətirir, hətta bu istəyini reallaşdırmaq üçün Ankaranın yardımından istifadə etməyə çalışır.

Bəs Ermənistanda Avrasiya İttifaqına üzvlüklə bağlı narazılıqların meydana gəldiyi bir zamanda Azərbaycanın bu İttifaqa daxil olması gözlənilirmi? Azərbaycana bununla bağlı Kremldən təzyiq ola bilərmi? Bu halda Azərbaycan hansı addımları atmalıdır?

**Sabiq baş nazir, AXP sədri Pənah Hüseyn bildirdi ki, Ermənistanda Avrasiya İttifaqı ilə bağlı baş verən hadisələrdə ən azı yarı oyun elementi var:** "Deməzdim ki, oradakı bütün qüvvələr sözləşmiş şəkildə hərəkət edirlər. Orada həqiqətən indiki Ermənistan iqtidarı əleyhinə çıxış edən qüvvələr var. Onlar Avrasiya İqtisadi İttifaqına daxil olmağın zərərli olduğu şüarlarından da Serj Sərkisyanın əleyhinə istifadə edirlər. Bundan əlavə, orada Rusiyaya qarşı olan müəyyən azsaylı qüvvələr var. Müəyyən qərbmeylli qüvvələr mövcuddur. Ancaq ölkədə siyasi ab-havanı müəyyən eləyən onlar deyil. O ki qaldı Azərbaycanın Avrasiya İttifaqına qoşulması məsələsinin gündəmə gəlib-gəlməyəcəyinə, bu, Türkiyə ilə Rusiyanın yaxınlaşmasından əvvəl də gündəmdə idi. Lakin gündəmdə olmaq hələ bu məsələnin gerçəkləşməsi demək deyil. Amma artıq bu məsələ xeyli müddətdir ki, Azərbaycanda və Rusiyada müzakirə olunur. Hətta xeyli müddətdir ki, Türkiyənin də Avrasiya İttifaqına qoşulması ilə bağlı Qazaxıstan prezidentinin təklif xarakterli işarələri gündəmə gəlir. Türkiyənin Avrasiya İttifaqına qoşulması ehtimalını Ermənistandan narahatlıqla gündəmə gətirirlər. Amma bu ehtimalın həyata keçməsi çox ciddi geosiyasi dəyişiklik demək olardı. Regionda geosiyasi mənzərəni ciddi dəyişdirərdi və yeni situasiya yaradardı".

**P.Hüseyn qeyd etdi ki, Azərbaycan Avrasiya İttifaqı məsələsindən özünün müəyyən maraqlarını həm müdafiə eləmək üçün, həm də Qarabağ məsələsində mümkün olduğu qədər nəyisə əldə eləmək üçün istifadə eləməyə çalışır:** "Qarabağ məsələsi ilə bağlı konkret olaraq çox ciddi mühüm dəyişiklik olmasa, ən azından Dağlıq Qarabağ ətrafındakı rayonlarımız azad edilməsə, Azərbaycanın Avrasiya İttifaqına qoşulması problematik görünür, hətta mümkünsüz görünür. Biz də hesab edirik ki, qeyd etdiyimiz məsələ baş vermədən Avrasiya İttifaqına daxil olmaq məsələsi gündəmə gətirilməməlidir.

Bu, Azərbaycanın taleyi ilə bağlı çox mühüm məsələdir. Azərbaycanın daxili siyasətinə də bu prosesin ciddi təsirləri ola bilər. Biz çox qarışıq bir mərhələdəyik. Bu mərhələnin yaxın dövrdə aydınlaşacağı elə də sadə görünmür. O baxımdan, istər Azərbaycan iqtidarı, istər Azərbaycan siyasi müxalifəti yaranmış vəziyyəti oturub düşünüb təhlil eləməlidir, öz mövqeyini müəyyənləşdirməlidir. Uzun müddət belə bir qeyri-müəyyən vəziyyətin davam eləməsi bizim maraqlarımız, perspektivlərimiz üçün də ciddi problemlər yaradır".

❑ Etibar SEYİDAĞA

# Yazarlar ölkə gündəminin əsas mövzularını sadalayır

## Referendum, siyasi həbslər, manat....



Azər Rəşidoğlu



Şahin Cəfərli



Elnur Astanbəyli

**Gündəm yay aylarında öyrəşdiyimiz sakitliyin əksinə olaraq qaynayır. Həbslər, Azərbaycanın daxili siyasətində baş verənlər və geopolitik olayların bizə təsiri... Bütün bunlar bütün hallarda gündəmi təşkil edir. Bəs maraqlıdır, tanınmış yazarlar, fikir adamları üçün gündəmin əsas mövzusu nədir və ya nələrdir?**

**Siyasi şərhçi Azər Rəşidoğlu** hesab edir ki, gündəm əlbəttə ki, Türkiyə, Ərdoğan və son olayların Azərbaycana transfer edə biləcəyi ehtimalıdır. Onun fikrincə, bölgə dini və etnik savaşa sürüklənir: "Səudiyyə, İran, Türkiyə və digər ölkələr arasında savaş başlayarsa, Azərbaycanda vətəndaş cəmiyyətinin zəiflədilməsi Qərb təsisatlarını maraqlandırmayacaq. Ciddi xaos gözlənilir bölgədə, mümkün nəticələr gündəmin əsas təhlil mövzusudur. Azərbaycanda keçiriləcək referendum və bununla bağlı ola biləcəklər də ciddi məsələdir. Natiq Cəfərlinin həbsi, QHT işi ətrafında yeni manevrlər. Bir sözlə, gündəm boldur və ehtimal edirəm ki, yaxın zamanlarda bölgə və Azərbaycan jurnalistləri üçün gündəm problemi olmayacaq".

**Politoloq Şahin Cəfərli də hesab edir ki, ölkədə əsas mövzu referendum olmalıdır. Onun fikrincə, buna baxmayaraq, bu barədə hələlik güclü təbliğat və ya əks-təbliğat kampaniyasından danışmaq mümkün deyil:** "Hakimiyyət bu dəyişikliklərin hansı zərurətdən irəli gəldiyini izah etməyib hələ ki. Regionda isə əsas mövzu Türkiyədə çevriliş cəhdi sonrası baş verənlər, bu ölkənin Rusiya və Qərblə münasibətlərinin perspektividir. Həm siyasi, həm də şəxsi planda məni narahat edən məsələ isə Natiq Cəfərlinin lazımsız və qanunsuz həbsidir".

**Köşə yazarı Elnur Astanbəylinin fikrincə, gündəmin əsas mövzusu sentyabrın 26-da keçirilməli olan referendumdur. Müsahibimiz hesab edir ki, bu olay xeyli dərəcədə gözlənilməz və tələm-tələsik şəkildə oldu:** "Arxasındakı bu qədər tələskənliyin səbəbini bilməsək də, monarxiyanın rəsmiləşdirilməsinə yönəlik addım olması şübhə görülməyən hadisədir. Bununla həm də siyasi həbslərin yenidən başlana biləcəyinin siqnallarını eşitdik. Natiq Cəfərlinin həbsi ilə buna bir növ start verildi".

**E.Astanbəyli düşünür ki, bu sadalananlar cəmiyyət üçün geniş müzakirə mövzusu deyil. Onları daha çox manatın taleyi, işsilik, sosial problemlər, qayğılar narahat edir:** "Amma biz yazarlar üçün dəyişməyən mövzular bunlardır. Düşünmürəm ki, insanlar haradasa otursub bu mövzuları müzakirə edirlər".

❑ Sevinc TELMANQIZI

**Avqustun 12-də həbs edilən Respublikaçı Alternativ Hərəkatının (REAL) icraçı katibi, iqtisadçı ekspert Natiq Cəfərlinin işindən apelyasiya şikayəti verilib. Bu barədə mətbuata açıqlamasında vəkil Cavad Cavadov məlumat verib. Yaxın günlərdə instansiya məhkəməsinin müraciətə baxacağı gözlənilir.**

# Respublika Prokurorluğu Natiq Cəfərlinin həbsinin səbəbini açıqladı

## İqtisadçı ekspertə qarşı rəsmi ittiham irəli sürüldü; REAL-ın icraçı katibi ailəsi ilə əlaqə saxlayıb



**İqtisadçı ekspertlə bağlı xəbərlər təkcə bununla bitmir. Baş Prokurorluq avqustun 15-də onun həbsi ilə bağlı məlumat yayıb:** "Cinayət işi üzrə çoxsaylı dindirmə, baxış, axtarış, götürmə və sair istintaq hərəkətləri yerinə yetirilmiş, Cəfərov Natiq Mehman oğlunun cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması barədə səlahiyyətli dövlət orqanlarından daxil olmuş məlumatlar məhkəmə qərarı əsasında Maliyyə və Vergilər nazirlikləri, həmçinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının mütəxəssisləri tərəfindən yoxlanılıb. Natiq Cəfərovun 2011-2014-cü illərdə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan vəzifəli şəxs kimi özü üçün qanunsuz üstünlük əldə etmək, yəni vergiləri ödəməkdən yayınaraq gəlir əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq sui-istifadə edib. Demokratiyaya Milli Dəstək Fondu tərəfindən özünün bilavasitə həyata keçirdiyi layihələr üzrə ayrılmış 94 565 ABŞ dolları məbləğində müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmayan qrant müqavilələri üzrə pul vəsaitlərinin "Bank Respublika" ASC-nin Nərimanov filialında yerləşən bank hesablarına köçürülməsini təmin etməklə nağdlaşdırıb, götürərək təşkilati-sərəncamverici funksiyaları həyata keçirən layihə rəhbəri kimi müxtəlif vəzifələrə işçilər cəlb edərək özünə, eləcə də, həmin şəxslərə xidmət və əmək haqları adı ilə pul vəsaitlərinin ödənilməsini təşkil etməsində, müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmayan qrant müqavilələri üzrə qanunsuz sahibkarlıq fəaliyyətini həyata keçirərək 71 334 manat məbləğində xeyli miqdarda gəlir əldə etməklə dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmasında əsaslı şübhələr müəyyən edilib.

Natiq Cəfərov iş üzrə verdiyi ifadələrində göstərilənləri təsdiq edərək qrant müqavilələrini müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçirmədiyini, ayrılmış qrant vəsaitini dostu, eyni zamanda həmin dövrdə REAL Hərəkatının həmsədri olmuş İlqar Məmmədovun köməkiliyi ilə mənfəət əldə etmək məqsədi ilə aldığını və fiziki şəxs kimi həmin vəsaitlərin rəhbəri olduğu layihələr üzrə xərclənməsinə sərəncam verdiyini təsdiq edib.

Natiq Cəfərovun Cinayət Məcəlləsinin 192.1 (Qanunsuz sahibkarlıq) və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui?istifadə ağır nəticələrə səbəb olduqda) maddələrində nəzərdə tutulan əməlləri törətməsində əsaslı şübhələr olduğundan təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Hazırda Baş Prokurorluğun Ağır cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi üzrə istintaq davam etdirilir", - deyə, məlumatda bildirilir.

REAL-ın icraçı katibi saxlanıldığı 1 saylı Bakı İstintaq Təcridxanasından anası ilə avqustun 15-də telefon vasitəsilə əlaqə saxlayıb. Bu barədə onun yaxınları məlumat verdilər. N.Cəfərlinin vəziyyətinin yaxşı olduğu, saxlanma şəraitindən narazı olmadığı, əhval-ruhiyyəsinin yüksək olduğu, hamıya salam göndərdiyi və anasına ürək-dirək verdiyi bildirilib.

Avqustun 16-da saat 15:00-da keçiriləcək İnsan Haqları üzrə Birgə İşçi Qrupunun toplantısında N.Cəfərlinin məsələsi müzakirə olunacaq. Məlumatı "Yeni Müsavat"a qurumun üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğlu verib.

İqtisadçı ekspertin həmkarı Qubad İbadoğlunun rəhbərlik etdiyi Azərbaycan Demokratiya və Rifah Hərəkatı onun həbsi ilə bağlı yaydığı bəyanatda bunu qəti şəkildə pisləyib. ADR N.Cəfərlinin azadlığını tələb edib.

Onu da qeyd edək ki, iqtisadçı ekspertin həbsinin ilk günlərindən daha çox ölkənin müxalif düşərgəsinin bununla bağlı mövqeləri müşahidə olunur. İqtidar bu məsələdə susqunluq nümayiş etdirir.

**Sükutu "Yeni Müsavat"a açıqlamasında "Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov pozdu. O, N.Cəfərlinin həbsi ilə bağlı bunları dedi:** "Çox qəribə bir fikir formalaşıb. Hamımız qanundan, qanunun aliliyindən danışırıq. Hamımız Azərbaycanda hüquqi dövlətin qurulmasını istəyirik. Belə olanda biz jurnalistlərin də işi asanlaşır. Qanunla biri barəsində həbs qərarı veriləndə, azadlığı məhdudlaşanda buna bir ad qoymağa başlayırıq. Həmin şəxsin hansısa təşkilata mənsub olduğunu, filan işə görə həbs edildiyini gündəmə gətiririk. Müəyyən şübhələr olmasa, hüquq-mühafizə orqanları heç bir Azərbaycan vətəndaşı barəsində həbs-qətimkan tədbiri seçməz, onun azadlığını istintaq dövründə məhdudlaşdırmaz. Əgər belə bir hal varsa, demək, ortada konkret fakt var. İstintaq işini asanlaşdırmaq, istənilən vaxt həmin şəxslə danışmaq üçün belə qərarlar verilir. Dünənə qədər qanundan danışırıq, amma belə hal olan kimi qanunu unuduruq. Dünyanın heç bir yerində vergidən yayınmağa kimsəyə icazə verilmir. Amerikada ölümdən və vergidən yayınmadan qaçmaq mümkün deyil. Bu şəxs iqtisadçıdırsa, mütləq bilir ki, qazandığı gəlirdən vergi ödəməlidir. İstintaq bunu sübut edəcək və deyilən sözlər üçün heç kim məsuliyyət daşımayacaq. Azərbaycanda söz və fikir azadlığıdır. Ona görə heç kim dediyi sözə görə məsuliyyət daşımır. Məsələyə yanaşmam budur. Burada iki məsələ ortaya çıxır. Əvvəla, bu qədər gəlir haradandır? Nə üçün vergini gizlətmisən? Vergini ona görə ödəməmisən ki, aldığın külli miqdarda gəlir gizli qalsın. Burada xoş niyyət görünmür. Bu cür məsələlərdə hamı səbirli olub, qanunu öndə tutmalıdır. İstintaq nəyisə sübut etməsə, həmin şəxs azad olunacaq. Yaxud narazı qalsalar, Avropa Məhkəməsinə müraciət etmək şansları var. Hesab edirəm ki, burada hüquq mühafizə orqanının əlində ciddi faktlar olduğuna görə belə addım atılıb. Amma onu deyim ki, heç kimin həbsxanaya düşməsinin, azadlığının məhdudlaşdırılmasının tərəfdarı deyiləm. Kimsə mənim bu fikirlərimi səhv anlamasın. Amma cəmiyyətdə o adət yaranmamalıdır ki, kefin istəyəndə vergi ödə, istəməyəndə yox. Siyasətçi, jurnalist, hüquq müdafiəçisi olduğunu ortaya atıb, qanuna əməl etməmək olmaz. Qanuna hamı əməl etməlidir".

❑ **Cavanşir ABBASLI**



### Müxalifət mitinq qərarında tələsmir

## "Referenduma qədər mitinq olacaqmı" sualına demokratik düşərgə nə dedi?

**Ölkədə keçiriləcək referendum, bahalaşma nəticəsində əhalinin sosial vəziyyətinin aşağı düşməsinin müşahidə olunması, Qarabağla bağlı hansısa prosesin getməsi ilə bağlı müxalifətin yaxın bir ayda mitinq keçirib-keçirməyəcəyi maraq doğurur. "Müxalifətin gündəmində belə bir təşəbbüslə çıxış etmək planı varmı" sualı ilə bir neçə müxalif partiya ilə əlaqə saxladıq.**

**ADP sədrinin müavini Taliyət Əliyev** bildirdi ki, qarşıdan gələn referendum, ölkədəki ağır sosial iqtisadi durum, Qarabağ problemi ilə bağlı aparılan müəmmalı danışıqlar və s. cəmiyyətimizi narahat edən məsələlərdir. Bu məsələlərin hər biri və ya bütövlükdə hamısı ilə bağlı etiraz aksiyalarının keçirilməsinə ehtiyac var: "Yaxşı olardı ki, bu problemlərlə bağlı cəmiyyətin mövqeyini əks etdirən mitinqlər keçirilsin. Amma təəssüf ki, cəmiyyətdə bir süstlük və apolitik vəziyyət hökm sürür və bu tipli aksiyaların keçirilməsi üçün ciddi sosial sifariş yoxdur. Əgər sadalanan problemlərlə bağlı hər hansı bir mitinq təyin olunsa, həmin mitinqə müxalifət partiyalarının üzvlərindən savayı qatılanlar az olacaq. Buna görə də ADP-nin indiki mərhələdə mitinq təşəbbüsü ilə çıxış etmək fikri yoxdur".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, mitinq qərarı verməzdən öncə çalışıb bu məsələnin ümumi müzakirəsinə nail olunsa, bunun özü bir ciddi addım olardı. Ən azı referendumu qəbul eləməyən siyasi qüvvələrin bir platformada təşkilatlanması istiqamətində addımlar atılması, müzakirələrin aparılması vacibdir:** "Bu istiqamətdə müəyyən təşəbbüslər olsa da, təəssüf ki, bu təşəbbüslər ya səmimi qarşılanmır, ya da təşəbbüslərə müsbət reaksiya verilmədi. Bu məsələdə hazırda iki mövqe var. Yəni müəyyən qüvvələr qanunvericiliyin verdiyi imkanlardan istifadə eləyib referendum təşviqat qrupu şəklində iş aparmaq istəyir, bəziləri bunu yanlış hesab edir. Məsələyə münasibət təkcə sosial şəbəkələrdə fikirlər bildirməklə məhdudlaşmalı deyil. Amma bu da faktdır ki, cəmiyyətdə ciddi narazılıqların dilə gətirilməsi və ifadə olunması üçün referendum məsələsi təkan rolunu oynaya bilər. Ölkədə bahalaşma, əhalinin həyat səviyyəsinin aşağı düşməsi göz önündədir. Bu vəziyyətin qarşısının alınması da gözlənilmir. Belə bir şəraitdə müxalifətin toparlanması və hərəkətə keçməsi üçün hələ resurslar var. Mən "Azərbaycanda siyasi müxalifət artıq yoxdur" fikri ilə razı deyiləm. Sadəcə olaraq, təşkilatlanmış müqavimətin olmaması, bunun mitinqlər şəklində reallaşdırılmaması o demək deyil ki, siyasi müxalifət yoxdur. 26 sentyabra bir aydan artıq vaxt var. Hadisələr inkişaf edir və hər an yeni ciddi proseslər baş verə bilər. O baxımdan mən hesab eləmirəm ki, mitinq məsələsi hansısa gündə real şəkildə gündəmə gəlməyəcək. Kütləvi aksiyalar və müxalifətin bir araya gəlməsi məsələsində hələ hər şey qurtarmayıb".

**Müsavat Partiyasının Divan üzvü Razim Əmiraslanlı isə bildirdi ki, bir neçə günə "Respublika" təşəbbüs qrupunun təşviqat qrupu kimi qeydə alınması üçün imzatoplama kampaniyasını yekunlaşdıracaqlar. Bundan sonra imzalar və digər sənədlər qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim ediləcək. Mitinq və digər təbliğat xarakterli aksiyalara gəlincə, bu məsələlər barədə təşviqat qrupu rəsmi qeydə alındıqdan sonra baxılacaq:** "Qanunvericiliyə uyğun olaraq partiyanın təbliğat-təşviqat dövründə müəyyən addımlar atmaq niyyəti var. Bununla bağlı partiyanın strukturlarında müzakirələr gedir. Müzakirələrin sonunda müəyyən qərarların veriləcəyi gözlənilir".

❑ **E.SEYİDAĞA**



# Ərdoğanı sevməyən ABŞ-ın özünü niyə sevmirlər?

**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**15 iyul çevriliş cəhdinə görə Ankara-Vaşinqton münasibətlərində yaranan gərginlik qalır. Əslində bu gərginlikdən qurtulmağın ən sadə, ən ziyansız yolu aydın və bəllidir: Türkiyənin ABŞ-dan tələb elədiyi məlum şəxsi Ankaraya təslim eləmək, vəssalam.**

Ağ Ev isə bunu etməyə tələsmir. Bununla da Amerika 15 iyul "darbe girişimi"nin arxasında durmadığını, təqsirsiz olduğunu isbatlamaq, öz üzərindən şübhələri götürmək istəmir nədənsə.

Bu Amerika da həqiqətən, qəribə dövlətdir. Regiondakı əsas hərbi-siyasi müttəfiqindən, NATO üzrə yeganə tərəfdaşından ortada özünə qarşı bunca şübhələr ola-ola sanki heç nə olmayıbmış kimi özünü aparır, üstəlik, Türkiyəni "müttəfiq və vazkeçilməz ölkə" adlandırmaqda davam edir.

Yaxşı, Türkiyə sizdən ötrü "müttəfiq və vazkeçilməz ölkə"dirsə, o zaman müttəfiq müttəfiqin narahatlığını bölüşməkdən niyə çəkinir? Deməli, torbada pişik var, eləmi?

Bütün bunların üstündən "Ərdoğan Vaşinqtonda sevilmir. Ərdoğan Avropada da sevilmir" demək nə dərəcədə ədalətli və məntiqli yanaşma? Bəli, ABŞ-ın ən qocaman diplomatlarından sayılan və 2008-2010-cu illərdə Türkiyədə səfir olmuş Ceyms Cefri "Hürriyet"ə müsahibəsində məhz belə deyib.

Sitat: "Ərdoğan Vaşinqtonda və Avropada sevilmir. Avtoritar görünür və yaxşı bir oyunçu olmadığı düşüncəsi ona hakimdir. Qərb daha əvvəllər Ərdoğandan da avtoritar olan bir çox liderlərlə əməkdaşlıq etdi, etməkdə davam edir".

Diplomatın Türkiyənin hazırkı başçısının niyə sevilmədiyinə verdiyi izah isə daha maraqlıdır. Deyib: "Amma fərq burasındadır - səudiyyəlilər, misirlilər hər fürsətdə bizə yaltaqlanır. "F-16"ları, müttəfiqlik münasibətlərini düşünərək bizimlə eyni dəyərləri bölüşdüyünü göstərirlər. Ərdoğan isə bizimlə toqquşur, səhvlərimizi üzümüzə vurur, dostumuz olmağa çalışmır. Ondan daha avtoritar liderlər isə dostumuz kimi görünərək zərər görmürlər. Çox yaxın vaxta qədər Putin də belə davranırdı. Ərdoğan Vaşinqtonda buna görə sevilmir. Bilirəm, heç ədalətli vəziyyət deyil".

Anlaşıldımı? Deməli, Amerikanın, amerikalıların kimisə, hansısa lideri sevməsi üçün həmin lider, şəxs kifayət qədər müti olmalı, yaltaqlanmalı, ABŞ-ın yazılmamış "oyun qaydaları"na əməl eləməli, onun nöqsanlarını üzünə deməməlidir.

Əcəb sevgi formuludur, deyilmi!!

Amma Türkiyə kimi qos-qoca dövlət, regional supergüc və onun lideri buna gedərmi? Türkiyə sıradan, "izqoy" dövlətmi ya? Əstəğfirullah. Əlbəttə ki, yox! Hakimiyyətdə Ərdoğan olmasaydı da - yox!!

Əslinə qalsa, diplomat bununla 15 iyul çevriliş cəhdi ilə bağlı gizli kartları açıb, "darbe"nin arxasında hansı qüvvənin və ya ölkənin durduğunu bir daha barmaqla göstərmiş olub. Bu - o dövlətdir ki, Türkiyənin başında Ərdoğan kimi "dikbaş", "səhvi üzə deyən" yox, yaltaq, müti birisinin olmasını istəyir. Yəni Türkiyənin də Misir, İraq kimi sıradan dövlətə çevrilməsinin arzusu ilə yaşayır.

Sözsüz, ABŞ qlobal supergücdür, fövqəldövlətdir, necə deyərlər, əlinin üstündə əl yoxdur, demokratik dövlətdir - daxildə öz toplumu üçün ideal və ədalətli bir idarəçilik sistemi qurub. Fəqət, bu ədalət prinsipi əfsus ki, rəsmi Vaşinqtonun xarici siyasətində bir elə əks olunmur - o cümlədən Türkiyə və Azərbaycana, Qarabağ məsələsinə münasibətdə bunu görə bilmirik.

Hələ başqa şeyləri demirik, bu da klassik fakt: ABŞ Krımın işğalına görə 3 ildir ki, Rusiyaya sanksiyalar tətbiq edir, onu işğalçı adlandırır, Krımı iqtisadi-maliyyə blokadasına alıb, amma Dağlıq Qarabağdakı separatçı rejimə hər il maliyyə yardımı ayırır, erməni separatçılarının Vaşinqtona səfər eləməsinə, Konqresdə görüşlər keçirməsinə göz yumur.

Hanı ədalət indi? Və ədalətli olmayanı sevmək, səhvlərini deməmək mümkünmü?

# İrəvanda baş verənlər
# Sərkisyanın oyunudur, yoxsa sonu?

## Ekspert: "Ermənistan Dağlıq Qarabağı nəzarətində saxladıqca öz xalqı rahat yaşamayacaq"

**Ermənistanda hakimiyyət əleyhinə mitinqlərin miqyası gündən-günə genişlənir və artıq Serj Sərkisyanın taxtını təhdid edir. Ötən gecədən başlayaraq İrəvanın Azadlıq meydanında müxalifətin mitinqi keçirilir.**

Mitinqdə ilk olaraq "Təsis parlamenti"nin üzvü, ASALA terror təşkilatının keçmiş üzvü Alek Yeniqomşyan çıxış edib. O, yeni hökumət qurmaq istədiklərini dilə gətirib. Hadisələr Azərbaycanda da maraqla izlənilir. Ən əsas sual isə Azərbaycanın düşmən ölkədəki qarışıqlıqdan necə yararlanacağı məsələsidir. Bəzi ekspertlər İrəvanda cərəyan edən hadisələrin Azərbaycanın maraqlarına xidmət etdiyini, bəziləri isə bütün bunların Sərkisyanın təşkil etdiyi bir şou olduğunu bildirirlər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, son vaxtlar Sərkisyan hakimiyyətinə qarşı olan bütün qüvvələr Ermənistanda birləşib:** "Bu qüvvələr rəngarəngdir. Aralarında fərqli siyasi cərəyanlar da, liberal qüvvələr də var, Qarabağda savaşan başkəsənlər də. Ona görə də birmənalı demək olmaz ki, bu hadisələrin Azərbaycana nə dərəcədə xeyri və ya müsbət tərəfi ola bilər. Sərkisyan Qarabağda separatçılara rəhbərlik etmiş şəxsdir. Onun Qarabağ danışıqlarında geri addım atacağı gözlənilmir. Bu baxımdan, əlbəttə ki, Ermənistanda qarışıqlıq yaranması, Sərkisyanın mövqelərinin zəifləməsi Azərbaycanın maraqlarına uyğundur. Bu isə bir daha onu sübut edir ki, Ermənistan Dağlıq Qarabağı nəzarətində saxladıqca, öz ölkəsində xalq rahat yaşamayacaq, sosial-iqtisadi problemlərin artdığı bir vaxtda Qarabağ da onlara əlavə bir yükdür. Həm siyasi baxımdan gərginlik yaradır, həm də maliyyə baxımından Ermənistanın büdcəsinə ağırlıq düşür. Bu yük artıq onlara ağır gəlir. Sərkisyan ölkəni idarə edə bilmir. Belə bir qarışıqlığın yaranması isə bizim xeyrimizədir. Yaxın tarixə qayıtsaq, onlar da vaxtilə bizim problemlərimizdən bizə qarşı çox məharətlə istifadə etməyə çalışdılar. 1993-cü ildə Surət Hüseynov qiyamı, silahlı qüvvələrin Dağlıq Qarabağdan çəkilməsi, Bakıda hakimiyyət uğrunda mübarizə və sair Ermənistan tərəfinin xeyrinə idi və bundan məharətlə istifadə edirdilər. İndi biz də cavab addımı kimi baxmalıyıq ki, Ermənistan hansı nöqtəyə qədər gedir. Bundan gələcəkdə öz məqsədlərimiz üçün istifadə etməliyik".



**Politoloqun fikrincə, Sərkisyan hakimiyyətdən gedərsə, onun yerinə gələn adamın Azərbaycanın maraqlarına uyğun hərəkət edəcəyini demək mümkün deyil:** "Çünki bilmirik ki, Sərkisyandan sonra hakimiyyətə gələn qüvvə daha çox liberallar olacaq, yoxsa millətçilər. Onlar Sərkisyandan da betərdilər və onun kimi Qarabağın işğalında iştirak ediblər. Liberal qüvvələr hakimiyyətə gəlsə, o zaman onlarla hər hansı real danışıqlar aparmaq olar. Ancaq indiki situasiyada bizdən tələb olunan Ermənistandakı vəziyyəti diqqətlə izləmək və lazım gələrsə, ondan istifadə etməkdir. İndiki hadisələr məhz aprel döyüşlərindən sonra yarandı. Aprel döyüşləri olmasaydı, bəlkə də indi Ermənistanda sakitlik idi. O döyüşlərdəki məğlubiyyət Ermənistan tərəfini çalxaladı. Gördülər ki, orduda korrupsiya var, hökumətin vəd etdiyi lazımi silahlar yoxdur".

**Elxan Şahinoğlu qeyd etdi ki, əgər Ermənistanda baş verən hadisələr kəskinləşsə ,Sərkisyanın vəziyyəti ağırlaşsa, bu, Qarabağdakı proseslərə də müəyyən qədər təsir edə bilər:** "Lakin Azərbaycana qarşı təxribat da baş verə bilər. Çünki Sərkisyan hakimiyyəti diqqəti ölkədaxili vəziyyətdən yayındırmaq istəyə bilər. Əgər cəbhədə toqquşmalar baş versə, bütün diqqət Qarabağa yönələr və belə olan halda müxalifət də anlayış göstərər. Ermənistan müharibə şəraitində olan dövlətdir, buna görə ölkədaxili məsələlər arxa plana keçər. Amma belə bir təxribata əl atsalar, yenə də öz problemlərini dərinləşdirəcəklər. Aprel ayında olduğu kimi böyük itkilər verəcəklər. Bu, həm Qarabağdakı rejimi, həm də Ermənistan hakimiyyətini silkələyə bilər".

**Politoloq Arzu Nağıyev isə "Yeni Müsavat"a açıqlamasında bu prosesin Azərbaycanın xeyrinə olduğunu düşünmədiyini bildirdi:** "Çünki Sərkisyanın son vaxtlar atdığı addımlar hamısı hakimiyyətin qorunması üçün düşünülmüş addımlardır - məqsədli təşkil olunmuş mitinqlər də, hər hansı qondarma müxalifət nümayəndəsinin mitinqlərə çıxması da. Bütün mitinqlərin başında son addım kimi Qarabağ məsələsində bir addım da geri atmamaq hədəfi durur. Dağlıq Qarabağda yaşayan qadınları, şəhid analarını da oraya yığmaqla göstərmək istəyirlər ki, guya bu mitinqlər də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Sərkisyanın istefası tələbləri də qondarma məsələdir. Çünki 2017-2018-ci illərə qədər o, nəyin bahasına olursa-olsun öz hakimiyyətini qorumağa çalışır. Bununla da Dağlıq Qarabağda status-kvonun saxlanması üçün zəmin yaradır. Sərkisyan hakimiyyətdən getsə, onun yerinə başqa bir adam gəlsə, artıq danışıqlar yenidən başlamalıdır. ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə yeni görüşlər keçirilməlidir".

**A.Nağıyevin fikrincə, bunlar hamısı çox yaxşı hazırlanmış bir şoudur:** "Düşünürəm ki, Sərkisyan bunu Rusiyaya nümayiş etdirməklə həm hakimiyyətinin qorunması üçün zəmin hazırlayır, həm də özünü sığortalayır ki, əgər Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilsə, xalq ayağa qalxa bilər. Azərbaycan hakimiyyətinə də Sərkisyanın hakimiyyətdə olması sərf edir. Sərkisyanın hakimiyyətdən getməsi bu gün Azərbaycanın xeyrinə deyil".

❑ **Nərgiz LİFTİYEVA**

# Türkiyədə terror-üç şəhid, 30-a yaxın yaralı var





**Türkiyədə partlayış törədilib. Avqustun 15-də saat 14:15 radələrində PKK terrorçuları Diyarbəkir-Mardin yolu üzərində, Diyarbəkrin Çinar qəsəbəsinin girişində içərisində bomba olan avtomobillə partlayış törədiblər. Partlayış nəticəsində 2 polis və 1 mülki şəxs şəhid olub, 30-a yaxın yaralı var. Yaralılardan 8-i polisdir. APA-nın "Hürriyet" qəzetinə istinadən verdiyi məlumata görə, PKK terrorçularının yük maşınındakı partlayıcı qurğunu kənardan işə saldıqları bildirilir. Partlayışdan sonra mərkəzin binası və yaxınlıqdakı iki yanacaqdoldurma məntəqəsində böyük dağıntı olub.**

# "Böyük özəlləşdirmə" başladı: onlarla obyekt hərracda

## Əmlak Məsələləri Dövlət Komitəsinin qərarı ilə çoxsaylı dövlət müəssisə və obyektləri özəlləşdirməyə çıxarılıb

**Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və səmərəliliyinin artırılması sahəsində mühüm yeniliklərə başlanıb. Əmlak Məsələləri Dövlət Komitəsinin qərarı ilə çoxsaylı dövlət müəssisə və obyektləri özəlləşdirməyə çıxarılıb.**

Komitədən fins.az-a verilən məlumata görə, bu tədbirlər prezident İlham Əliyevin "Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında» 19 iyul 2016-cı il tarixli fərmanına və dövlət başçısının bu sahədəki digər tapşırıqlarına uyğun olaraq həyata keçirilir.



### 65 obyekt hərraca çıxarıldı

Artıq komitə tərəfindən 65 dövlət əmlakının özəlləşdirilməsi barədə hərraclar elan edilib. Bu əmlakların 25-i iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən səhmdar cəmiyyətlər, 2-si qeyri-yaşayış sahəsi, 28-i digər dövlət əmlak və obyektləri, 10-u isə nəqliyyat vasitələridir. Özəlləşdirməyə çıxarılan müəssisələr nəqliyyat, xidmət, kənd təsərrüfatı, o cümlədən qida istehsalı, inşaat və ticarət sahəsində fəaliyyət göstərirlər.

Hərraclar barədə məlumat ƏMDK-nın rəsmi orqanı olan "Mülkiyyət" qəzetində və Komitənin yenicə istifadəyə verilmiş Özəlləşdirmə portalında yerləşdirilib.

### Daha çox əmlak hərraca çıxarılacaq

İnvestorlar özəlləşdirməyə çıxarılan müəssisələr barədə geniş məlumatla Özəlləşdirmə portalında (http://privatization.az/index.php/az/sas-s-hif/mue-ssis-l-r # ttp://privatization.az/index.php/az/sas-s-hif/mue-ssis-l-r) tanış ola bilərlər.

Bundan başqa, yerli və xarici investorların cəlb edilməsi üçün komitə tərəfindən 6 ASC barədə ətraflı məlumat - əvvəlki istehsal imkanları, hazırkı vəziyyəti və gələcək perspektivliyini özündə əks etdirən profillər də hazırlanaraq Özəlləşdirmə portalında yerləşdirilib.

"Qarşıdakı dövrdə çoxlu sayda dövlət müəssisə və obyektlərin mərhələli çəkildə özəlləşdirməyə çıxarılması planlaşdırılır»,-deyə komitədən bildirilib.

### Özəlləşdirmədə mühüm yeniliklər

Amma yeniliklər təkcə özəlləşdirməyə çıxarılan obyektlərin sayının artması ilə bağlı deyil. Prezident İlham Əliyevin sözügedən fərmanına və dövlət başçısının bu sahədəki digər tapşırıqlarına uyğun olaraq budəfəki özəlləşdirmə prosesində mühüm yeniliklər tətbiq edilir.

Əvvəla, özəlləşdirməyə çıxarılan dövlət əmlakları inventar qiyməti ilə deyil, bazar dəyərlərinə uyğun qiymətlərlə hərraclara çıxarılıb.

### Özəlləşdirilən əmlaklar Google Maps-da

Bundan başqa, özəlləşmədə şəffaflığın təmin edilməsi, geniş alıcı kütləsinin cəlb olunması üçün hərraca çıxarılan əmlaklar barədə indi daha geniş və təfərrüatlı məlumat təqdim olunur. Belə ki, investorlar Özəlləşdirmə portalına daxil olaraq özəlləşən müəssisə və əmlakların yeri ilə bağlı (Google Maps -dan çıxarış olaraq) xəritə məlumatları ilə tanış ola bilərlər.

### Obyektlərin vəziyyətinə internetdə baxmaq olar

Xəritə məlumatları ilə yanaşı, portalda müəssisələrin, əmlakların və nəqliyyat vasitələrinin mövcud vəziyyətini əks etdirən fotoşəkillər də əksini tapıb. Bütün bunlar investorlar və özəlləşdirmədə iştirak etmək niyyəti olan potensial iştirakçıların satılan əmlaklar barədə daha geniş məlumata malik olmasına imkan verəcək.

### Özəlləşdirmə məlumatları facebook-da

Azərbaycandakı özəlləşdirmə prosesinə yerli və xarici investorların cəlb edilməsi məqsədilə Özəlləşdirmə portalındakı bütün məlumatlar Azərbaycan dili ilə yanaşı, ingilis dilində də təqdim olunacaq.

Eləcə də investorlar üçün onlayn məlumatlandırma sistemi fəaliyyət göstərir. Bu sistemin vasitəsilə özəlləşdirmə prosesi ilə bağlı istənilən sualla komitəyə müraciət edib qısa zamanda ətraflı məlumat almaq mümkündür.

İnvestorlar onları maraqlandıran sualları ƏMDK-nın facebook sosial şəbəkəsindəki səhifəsinə də ünvanlaya bilərlər. Həmçinin iddiaçılara yerlərdə baxış üçün də şərait yaradılacaq.

### Büdcə gəlirləri və iş yerləri artacaq

Komitədən bildirilib ki, dövlət başçısının fərman və sərəncamları, komitə qarşısında qoyduğu tapşırıqlar, eləcə də mövcud qanunvericilik əsasında atılan bu addımlar və tətbiq edilən yeniliklər Azərbaycanda həyata keçirilən özəlləşdirmə prosesinin sürətlənməsi və səmərəliliyinin artırılmasına, prosesə daha çox xarici və yerli investorların qoşulmasına imkan verəcək. "Bu isə ölkədə iqtisadi aktivliyin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması ilə yanaşı, özəlləşdirmədən dövlət büdcəsinə daxil olmaların artırılmasına da müsbət təsirini göstərəcək»,-deyə məlumatda bildirilir.

### Komitə özəlləşdirməyə çağırır

Bu baxımdan, ƏMDK yerli və xarici iş adamlarını, mülkiyyətçi olmaq istəyən hər bir vətəndaşı özəlləşmədə fəal iştirak etməyə dəvət edir.

Qeyd edək ki, ƏMDK "Daşkəsən Filizsaflaşdırma" ASC-nın özəlləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması üçün nüfuzlu məsləhətçinin cəlb edilməsi ilə bağlı açıq tender elan edib.

# Mürgüləyən satıcıları ilə baş-başa qalan "Şərq bazarı"

## Qiymətlər çox aşağı olsa da, bura heç ərəblər də gəlmir

**Manatın devalvasiyasından sonra ölkədə pərakəndə satış obyektlərində, nisbətən aşağı təbəqənin alış-veriş etdikləri bazarlarda durğunluq yaşanır. Həmin bazarlar sırasında xüsusilə Nərimanov rayonu ərazisində yerləşən "Şərq bazarı"nın adını çəkmək olar. Hansı ki, deyilənə görə, bura, ümumiyyətlə, hər zaman müştəri sarıdan korluq yaşayıb...**



Bazarda demək olar ki, müştəriyə rast gəlmək mümkün deyil. Elə satıcıların əksəriyyəti ilə söhbətimiz zamanı onlar da bunu təsdiqlədilər ki, son zamanlar müştəri baxımdan xeyli çətinlik çəkirlər.

**Satıcı Ayaz** söylədi ki, ümumiyyətlə, bazarda 5 ildən çoxdur ki, müştəri qıtlığı yaşanır: "Demək olmaz ki, manatın ucuzlaşmasından sonra müştərilərimizi itirdik. Xeyr, elə burada beş ildən çoxdur ki, müştəri qıtlığı yaşanır. Sadəcə olaraq, manat ucuzlaşdıqdan sonra bizimlə bərabər bir çox bazarlarda da alış-veriş zəiflədi. O baxımdan yanaşanda bizə ikiqat zərər dəydi. İndi də gördüyünüz kimi, bazarın ərazisi kifayət qədər böyük olsa da müştəri yoxdur. Bir müştəri çıxanda ona da malımızı sanki maya dəyərinə veririk ki, heç olmasa nə isə qazana bilək".

Bazarda kişi satıcılarının bir çoxunun qəzet oxuduqlarını, çay içdiklərini, qadınların isə əksəriyyətinin digər satıcı yoldaşları ilə söhbət etdiklərini və ya mürgülədiklərini müşahidə etdik. Bir saata yaxın piştaxtaların arası ilə gəzib, satıcılarla söhbət etsək də, müştəriyə rast gəlmədik.

**Lakin bəzi satıcılar bildirdilər ki, vəziyyəti heç də acınacaqlı kimi xarakterizə etmək doğru deyil. Adını söyləməyən ahıl yaşlı satıcı bildirdi ki, əgər buradan xeyir götürməsələr, heç kim 100-200 manat icarə haqqı ödəyib, istinin günündə bazarda oturmaz:** "Demək ki, gəlir götürürlər deyə, heç yerə getmirlər. Az da olsa şükür ki, müştərilərimiz var. Başqa yer olsun, gedək işləyək. Buranı bağlasaq nə edəcəyik ki? Müştəri yoxdur, icarə haqqı da aşağıdır da. Bunu da qeyd etmək lazımdır. Başqa yerlərdə camaat 1000-1500 manat icarə haqqı ödəyir. Burada isə 100-300 manata mağaza götürüb işlədirlər. Əgər ölkədə hər hansı bir zavod, fabrik və digər bu kimi işləməyə yer olsa, mən məmnuniyyətlə bu istidə oturmaqdansa, gedib orada işləyərəm".





İstidən söz düşmüşkən, bazarda ventilyasiya sistemi də bərbaddır. Bazarın günbəzlər formasında olan tavanında bir neçə ventilyator görmək olur. Ancaq onlar da çox zəif işləyir. Bir sözlə, elə satıcının söylədiyi kimi, alıcı istinin əlindən heç mala da baxmaq istəmir.

Satıcılardan götürdükləri yerin icarə haqqı barəsində də məlumat aldıq. Öyrəndik ki, burada icarə haqqı həqiqətən də yüksək deyil. Yerin ölçüsünə görə icarə haqqı müxtəlifdir. Misal üçün, bir piştaxta götürüb üzərində corab və digər bu kimi geyim əşyaları satmaq üçün ayına 100 manat icarə haqqı ödəməlisən. Mağazaların isə qiymətləri ərazisinə görə 200-300 manat arasında dəyişir.

İcarə haqqı kimi bazardakı geyimlərin də qiyməti digər yerlərlə müqayisədə ucuzdur. Daha doğrusu, satıcılar əsasən ucuz mal gətirməyə üstünlük verirlər. Bunun səbəbini belə izah etdilər ki, baha olanda malları əllərində qalır. Misal üçün, kostyum mağazalarının birində ən bahalı kostyumun 110 manat olduğunu öyrəndik. Eləcə də digər geyimlərdə ən böyük qiymətin söylədiyimiz rəqəm ətrafında və ondan daha aşağı olduğunu müşahidə etdik.

**Lakin qiymətin ucuz olmasına baxmayaraq, satıcılar bildirdilər ki, bura heç bir xarici turist, xüsusən də son zamanlar Bakıya üz tutan ərəblər də gəlmirlər. Satıcı Kamil kişi bildirdi:** "Demək olmaz ki, hər yerdə vəziyyət bu cürdür. Xeyr, heç də belə deyil. Fikir verin, harada qiymətlər bahadırsa, orada müştəri də çoxdur. Bizdə qiymətlər aşağıdır, ancaq alıcı yoxdur. Şəhərin mərkəzi küçələrində alış-veriş 2 il əvvəl necə gur idisə, indi də eləydir".

Bazarın içərisində havasızlıq olması ilə bərabər, çöldən görünüşü də ürəkaçan deyil. Bir çox mağazaların şüşələri qırılıb, onun yerinə sellofan çəkilib. Satıcılar da bildirdilər ki, bəlkə də bazar abadlaşdırılarsa, xarici görünüşü, içərisindəki şərait dəyişərsə, müştərilərin də sayı artar. Binanın vəziyyətinə gəlincə isə satıcılar bildirirlər ki, binanı qəzalı vəziyyətdə saymaq olmaz. Köhnə tikili olsa da divarlarda heç bir çat və ya digər bu kimi uçuqlar yoxdur. Lakin ümumi ab-hava köhnədir.

❑ **Əli RAİS**

❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 179 (6500) 16 avqust 2016

**Avqustun 15-də günorta saatlarında hüquq müdafiəçisi Bəxtiyar Hacıyev yol polisləri tərəfindən saxlanılıb. İlk olaraq, bu barədə onun özü facebook səhifəsində məlumat verib.**

# Bəxtiyar Hacıyev polislə dalaşıb məhkəməlik oldu

## Hüquq müdafiəçisi "ya yol polisi cəzalanmalıdır, ya da ölkədən getməliyəm" dedi, DYP rəsmisi isə fakt istəyir



**Paylaşdığı statusda hüquq müdafiəçisi bunları yazıb:** "Dünən mübahisə edib, söyüş söyən yol polisi ilə mübahisə yarandı, yol polisi fiziki güc tətbiq etdi, indi 27-ci polis bölməsinə gedirik. Ya bunlar cəzalanmalıdır, ya da ölkədən getməliyəm. Başqa cür alınmır".

**Daha sonra müsavat.com-la əlaqə saxlayan B.Hacıyev bildirib ki, onu 27-ci polis bölməsinə gətiriblər və sənədləşmə prosesi gedir. Bölmədə olduğu müddətdə o, saxlanılması barədə "qafqazinfo" saytına açıqlama verib. Hüquq müdafiəçisi son günlərdə yol polisləri ilə problemlər yaşadığını söyləyib:** "Son 4 gündə mütəmadi olaraq yol polisi ilə problemlər yaşayıram. Dünən YPX əməkdaşı yol hərəkəti qaydasını pozduğumu deyib, avtomobili cərimə meydançasına aparmalı olduğumu dedi. Mən də maşını təhvil verdim, sonra ona yaxınlaşıb "aparmamaq olardımı?" deyə, soruşdum, dedi ki, "sən yol polislərini sevmirsən", cavab verdim ki, bu normaldır. O da dedi "mən də sürücüləri sevmirəm" və söyüş söyüb, sürüb getdi. Hələ də avtomobilim cərimə meydançasındadır. Bu gün piyada gedərkən döş nişanı "0404" olan həmin YPX əməkdaşına yaxınlaşıb, dünən niyə söyüş söydüyünü soruşdum. Maşından düşüb birbaşa olaraq mənə yumruq atmağa, söyüş söyməyə başladı. Sonra isə Post Patrul Xidməti əməkdaşlarını çağırdı. Mənə də dedi "səni tutduracağam". Bölmədə də məni provokasiyaya çəkmək üçün hərəkətlər edirdi. YPX əməkdaşları raport yazıb getdilər. Polis bölməsinin əməkdaşları digər sənədləri hazırlayırlar. Çox güman ki, məhkəməyə göndərəcəklər".

**B.Hacıyev başına gələnlərin təsadüf olmadığını da qeyd edib:** "Mən son vaxtlar yol polisini tənqid edən statuslar yazmışam. Bir neçə gün ərzində YPX ilə 4 dəfə problem yaşamağımı da təsadüf saymıram. Düşünürəm ki, heç bir səbəb əsas vermir ki, yol polisi fiziki güc tətbiq eləsin, təhqir etsin. Yol polisi fəxrlə deyir ki, mən dövlət rəsmisiyəm, vətəndaşa istədiyimi edə bilərəm. Bu artıq kifayət qədər böyük problemdir".

**"Əgər yol polisinin Bəxtiyar Hacıyevə qarşı etdiyi qanunsuz hərəkətlə bağlı əlində dəlil-sübut və ya fakt varsa, buyurub, bizə şikayət ərizəsi ilə müraciət etsin". Bu haqda gununsesi.info-ya Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov siyasi fəalla bağlı yaşanan olaya münasibətində bildirib. O, qeyd edib ki, B.Hacıyevlə bağlı baş vermiş hadisə barəsində heç bir məlumatı və ya informasiyası olmasa da, buna baxmayaraq, şikayətini dinləməyə hazırdır:** "Nəinki Bəxtiyar Hacıyev, istənilən vətəndaşın polis və ya yol polisi tərəfindən ona edilən haqsızlığı sübut edəcək dərəcədə əlində faktı varsa, buyursun idarəmizə. Qapımız, pəncərəmiz istənilən vətəndaşın üzünə açıqdır. Əgər bizə bu tipli gündə 20-25 müraciət daxil olursa və biz vətəndaşların iştirakı ilə şikayəti araşdırıb, onları razı yola sala biliriksə, o zaman Bəxtiyar Hacıyevi niyə qəbul edib, şikayətini dinləməyək? Nazirimiz hər zaman vətəndaşın şikayətinin onun iştirakı ilə araşdırılıb həll edilməsini bizdən tələb edir. Bundan başqa, internet üzərindən, sosial şəbəkələrdən və informasiya portallarından öyrəndiyimiz xəbərləri də araşdırırıq. Bəxtiyar Hacıyev mətbuata xəbər verdiyi kimi, bizə də şikayət ərizəsi ilə müraciət etsəydi, araşdırardıq. Əgər polis əməkdaşının şikayəti haqqında Bəxtiyar Hacıyevin işini məhkəməyə çıxarıblarsa, o zaman prosesdən sonra sivil qaydada məhkəmə qərarı haqqında mətbuata açıqlama verəcəm" deyə, o bildirib.

**Axşam saatlarında artıq B.Hacıyevin məhkəmə önünə çıxarılacağı dəqiqləşib. Bu barədə onun özü müsavat.com-a qısa məlumat verib:** "İzahat yazıram. Bir azdan məni məhkəməyə aparacaqlar. Proses Yasamal Rayon Məhkəməsində olacaq. Xırda xuliqanlıq maddəsi ilə ittiham olunuram. 510-cu maddə ilə məhkəməyə göndərilirəm".

Açıqlamasının ardından qısa müddət keçməmiş o, məhkəməyə aparılıb. Qəzet çapa gedərkən B.Haciyevin məhkəməsi hələdə davam edirdi.

Xatırladaq ki, bundan öncə də B.Hacıyev məhbus həyatı yaşayıb. O, 2011-ci ilin martında saxlanılıb və 2006-cı ildən etibarən hərbi xidmətdən yayınma ittihamı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib.

O, "Amnesty" International, "Human Rights Watch", "Freedom House", "Freedom Now" kimi beynəlxalq təşkilatlar tərəfindən "vicdan məhbusu" elan edilib.

B.Hacıyev 4 iyun 2012-ci ildə Ali Məhkəmənin qərarı ilə vaxtından əvvəl şərti azadlığa buraxılıb.

❑ **Cavanşir ABBASLI**



# NİDA-çı gənc narkotik satma ittihamı ilə həbs edildi

**NİDA Gənclər Hərəkatının üzvü Elgiz Qəhrəman narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma ittihamı ilə 4 aylıq müddətə həbs edilib.**

AzadlıqRadiosu xəbər verir ki, bu ittiuhamla gənc fəal əmlakı müsadirə olunmaqla, 5 ildən 12 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırıla bilər.

NİDA-dan verilən xəbərə görə, Elgiz Qəhrəman avqustun 12-də yaxın dostu ilə birgə saxlanılıb. Onları Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparıblar. Onun dostu bir saatdan sonra buraxılıb. NİDA-çı gənci isə idarədə saxlayıblar.

Elgiz Qəhrəmanın Türkiyədə təhsil aldığı deyilir. O, riyaziyyat və siyasi bilimlər üzrə təhsil alıb.

# Deputat sələmçilik fəaliyyəti ilə bağlı niyə susur?


Rüfət Quliyev

**Deputat Rüfət Quliyevin sələmçilik fəaliyyəti haqda günlərdir ki, məlumatlar dərc olunur. Maraqlıdır ki, deputat yazılanlara münasibət bildirməyə tələsmir. Rüfət Quliyevin sələmçilik fəaliyyəti üzərindən öz 40 illik mərhum dostunun ailəsinə məhkəmə davası açması xəbəri də daxil olmaqla, ötən günlər ərzində bu mövzuda yazılan xəbərlərin hər birinə deputatın münasibətini öyrənməyə cəhd etmişik. Deputatın vəkili Kamandar Nəsibov "Yeni Müsavat"a açıqlamasında bunu deputatın xaricdə olması ilə izah edib. Deyib ki, deputat xaricdədir. Deputatın mobil telefonuna etdiyimiz israrlı zənglər də cavabsız qalıb. R.Quliyev Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü olmaqla yanaşı, 1999-cu ildən "European Tobacco-Baku" ASC-nin İdarə Heyətinin sədridir. Bu baxımdan, "European Tobacco Baku"nun 490-30-18 nömrəsi ilə əlaqə saxladıq. Xəttin əks tərəfindən kimliyimizi öyrənib bildirdilər ki, Rüfət Quliyevlə calaşdıracaqlar. Az sonra isə R.Quliyevin ofisdə olmadığını bildirdilər. Sonrakı zənglərimizdə də R.Quliyevlə danışıb barəsindəki sələmçilik ittihamlarına onun münasibətini öyrənə bilmədik.**

Bir daha qeyd edək ki, Milli Məclisin üzvünün faiz davasına avqustun 18-də Səbayel Rayon Məhkəməsində hakim Zaur Əliyevin sədrliyi ilə baxılacaq. R.Quliyev 40 illik dostu olmuş mərhum Namiq Səfərovun dul həyat yoldaşına qarşı iddia qaldırmaqla onun əmlaklarına həbs qoydurub. Bu məsələ ictimailəşəndən sonra məlum olub ki, Rüfət Quliyevin əsas fəaliyyət istiqaməti sələmçilikmiş.

Bir daha diqqətə çatdırırıq ki, deputatı dinləməyə, mövqeyini dərc etməyə hazırıq.

❑ **E.MƏMMƏDƏLİYEV**




# "Asan imza"nın çətinliyi ilə bağlı iradlara rəsmi cavab

**Əməkdar jurnalist, hüquq müdafiəçisi Azər Həsrət özünün bloqunda "Asan imza" ilə bağlı narazılıq bildirib. Ölkədə e-hökumətin bir sıra çatışmayan cəhətlərini qeyd edən jurnalist "Asan imza" ilə bağlı da bəzi məqamlara toxunub.**

O yazıb: "3 il öncə bir çox insanlar qaçaqaçla "Asan imza" sertifikatı əldə etmişdi. İndi aradan 3 il keçib. Bir çoxları üçün "Asan imza" sertifikatı yenilənməlidir. Olsun. Amma yenə də anlamadığımız bir problem qalmaqdadır: simkart dəyişdirilməlidir. Niyə? Hansı səbəbdən? Hazırda istifadə etdiyimiz simkartın nə problemi var axı? Şəxsən mənim bu iş üçün istifadə etdiyim simkart sağlamdır, işlək nömrə daşıyıcısıdır və ötən müddət ərzində bir dəfə də olsun xidmətdən kənar olmayıb. İndi mən niyə bu simkartı dəyişməliyəm. Çünki simkartı dəyişərkən yenidən 18 manat ödənməlidir?"

O həmçinin qeyd edib ki, 18 manat verib simkart almaqla bərabər hər ay 50 qəpik xidmət haqqı da ödəmək lazımdır və bu xidmətin istifadəsi də xeyli çətindir.

**Jurnalistin bu iradları ilə bağlı ilk olaraq "ASAN xidmət"lə əlaqə saxladıq. Qurumun mətbuat xidmətinin rəhbəri Anar Hüseynov iradlarla bağlı musavat.com-a aşağıdakıları bildirdi:** "Bu xidməti "ASAN xidmət" mərkəzləri ilə Vergilər Nazirliyi həyata keçirir. Yeni bu xidmətin həyata keçirilməsi birbaşa onlara aiddir. Detallar və proseduralar barəsində də onlar məlumatlıdırlar. Biz, sadəcə olaraq, xidmətin təşkili ilə məşğuluq. Xidmətin göstərilməsi isə onların özlərinə aiddir. Nömrə məsələsinə gəlincə isə bildiyim qədəri ilə onu mobil operatorlar verirlər. Ümumilikdə isə xidmətin sadələşdirilməsi və digər bu kimi məsələ də Vergilər Nazirliyinə aiddir".

**Vergilər Nazirliyinin mətbuat xidməti ilə əlaqəmiz baş tutmadı. Lakin nazirliyin saytında "Onlayn bələdçi" ilə əlaqəmiz zamanı bizə bildirdilər ki, "Asan imza" yenilənmir:** "Onun müddəti 3 ildir. Bütün proseslər tam yenidən aparılır. Yeni simkart alınmır, dublikat olunur. 18 manatı isə bizim qurum almır. Onu mobil operator alır".

❑ **Əli RAİS**

# Azərbaycan əhalisinin sayı - bölgələr üzrə göstəricilər



**Rəsmi məlumata görə, Azərbaycan əhalisinin sayı 2016-cı il iyulun 1-nə 9 milyon 755,5 min nəfər olub. Bəs ayrı-ayrı bölgələr üzrə göstəricilər necədir? İnzibati rayonların əhalisinin sayı barədə son hesabata əsasən, 2015-ci il yanvarın 1-nə paytaxt Bakının əhalisi 2 milyon 204,2 min nəfər olub. Paytaxt üzrə əhalinin sayı ən çox olan rayon kimi Xətai göstərilib: 270,7 min nəfər.**

Binəqədi rayonu 257,9 min nəfərlə ikinci, Yasamal rayonu 243,6 min nəfərlə üçüncü sırada gəlib.

2015-ci ilin əvvəli üçün Sabunçu rayonunun əhalisi 236,5 min, Nəsimi rayonunun əhalisi 217,4 min, Suraxanı rayonunun əhalisi 212,3 min nəfər göstərilib.

**Digər rayonların 2015-ci ilin əvvəlinə göstəriciləri belə olub:**

Nizami - 193,8 min nəfər

Nərimanov - 173,1 min nəfər

Xəzər - 160,4 min nəfər

Qaradağ - 118,5 min nəfər

Səbail - 100,1 min nəfər

Pirallahı - 19,9 min nəfər.

2015-ci ilin əvvəlinə olan hesabata əsasən, Abşeron rayonunda 202,8 min nəfər yaşayıb.

Hacı Zeynalabdin Tağıyev və Corat qəsəbələri ilə birgə Sumqayıtın 332,9 min nəfər əhalisi olub.

Dövlət Statistika Komitəsi Gəncə şəhərinin 2015-ci ilin əvvəlinə olan əhalisini 328,4 min nəfər göstərib.

Qərb zonasında əhalisinin sayı ən çox olan rayon kimi Şəmkir qeyd edilib: 207 min nəfər.

Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin sayı baxımından 181 min nəfərlə Şəki birinci olub.

Cənub zonasında Lənkəran rayonu 220,8 min nəfərlə ilk sırada yer alıb. Masallı rayonunun 215,2 min nəfər, Cəlilabad rayonunun 209,3 min nəfər əhalisi olduğu bildirilib.

Şimal bölgəsində Xaçmaz rayonu 171,2 min nəfərlə birinci yerə qoyulub. 2015-ci ilin əvvəlinə Quba rayonunun əhalisi 163,9 min nəfər göstərilib.

Başqa rayonlara gəlincə, 2015-ci ilə Göyçayın əhalisi 115,8 min, Şamaxının əhalisi 99,7 min nəfər olub.

Bərdənin 151,2 min, Ağcabədinin 130,3 min, Yevlağın 124,6 min nəfər əhalisi olduğu qeyd edilib.

Mingəçevir şəhərinin əhalisi 101,6 min nəfər göstərilib.

Salyanın 131,8 min nəfər, Sabirabadın 167,5 min nəfər əhalisi olduğu bildirilib.

2015-ci ilə Şirvan şəhərinin *(Hacıqəhrəmanlı və Bayramlı qəsəbələri daxil olmaqla)* 82,9 min nəfər əhalisi olduğu qeyd edilib.

Naxçıvan Muxtar Respublikasında isə 439,8 min nəfərin yaşadığı qeyd olunub. Bu il mayın 1-nə olan məlumata görə, muxtar respublikada əhalinin sayı 445 min 830 nəfərə çatıb.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Azərbaycanlı biznesmenin qatilləri tutuldu

**Leninqrad vilayətində Vsevolovski rayon cinayət axtarış idarəsinin əməliyyatçıları azərbaycanlı biznesmen Vəli Hümbətovun qətlində şübhəli bilinən iki nəfəri saxlayıblar. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, saxlanılanlardan biri 7-ci polis bölməsinin keçmiş əməkdaşı Boris Kuşnirdir.**

Onlar yoxa çıxan iş adamını dostu Mixail Yurtsevlə boğandan sonra qarət edib, beləliklə, 200 min rubl borcu qaytarmamağı qərara alıblar. Ödürülən Vəli Hümbətov Leninqrad vilayətinin Lujski rayonunda istixanada tərəvəz yetişdirməklə məşğul olub. Kuşnir Yurtsevlə aldıqları malın pulunu qaytarmalı idi.

Biznesmenin həyat yoldaşı onun yoxa çıxması haqda Daxili İşlər Nazirliyinə avqustun 1-də, o, tərəfdaşları ilə görüşdən qayıtmadıqdan sonra xəbər verib. Bundan əlavə Hümbətovun mənzilindən 400 min rubl da yoxa çıxıb. Müşahidə kamerasında görünür ki, Kuşnir və Yurtsev biznesmen və pul yoxa gün Hümbətovun evinin yaxınlığında olublar. Saxlanılandan sonra onlardan biri hadisəni törətdiyini etiraf edib.

İstintaq Komitəsi qətllə bağlı cinayət işi qaldırıb. Hazırda saxlanılanlar barəsində həbs-qətimkan tədbiri seçilib, əməliyyatçılar biznesmenin meyitini axtarırlar.

## Bakıda qadın məşuqunu öldürüb

**Avqustun 14-də Sabunçu rayonunun Bilgəh qəsəbəsində yaşayan Valentina Flimonova evində qeyri-rəsmi nikah münasibətlərində olduğu Nikolay Orlova bıçaqla xəsarət yetirib. Daxili İşlər Nazirliyinin məlumatına görə, N.Orlov hadisə yerində ölüb.**

Sabunçu RPİ 14-cü PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində V.Filimonova tutulub.

## 15 yaşlı yeniyetmə dənizdə boğuldu



**Lənkəranda dəniz daha bir can aldı. Şəhərin "Kiçik Bazar" ərazisində, Xəzər dənizində Göyşaban kənd sakini 15 yaşlı İslamzadə Elmar Eldar oğlu boğulub.**

Hadisə Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Məntəqəsinin yaxınlığında baş verib. Həmyaşıdları ilə birlikdə dənizdə çimən yeniyetmə qəfildən boğulmağa başlayıb. Dalğaların güclü olması səbəbindən yaxınlıqdakılar onu çıxara bilməyib.

Dərhal Fövqəladə Hallar Nazirliyinə məlumat verilib və nazirliyin Dövlət Sularda Xilasetmə Dəstəsinin dalğıcları Elmar İslamzadənin axtarışlarını həyata keçirir. Həlelik onun meyitini aşkar etmək mümkün olmayıb.

Bu, son bir həftə ərzində Lənkəranda baş verən ikinci boğulma faktıdır. (Region TV)

YENİ MÜSAVAT
N 179 (6500) 16 avqust 2016

**Xalq artisti Ramiz Novruzun stilist qızı Şəfəq Novruzovanın erməni əsilli həmkarı ilə münasibəti gündəmin əsas müzakirə mövzularından birinə çevrilib. İctimaiyyətdə, sosial şəbəkələrdə tənqidlərə tuş gələn azərbaycanlı stilistə havadar olanlar da az deyil. Bəziləri qalmaqalın əsas səbəbkarı, stilist Georgi Kotun yalnız anasının erməni olduğunu, bu arqumentlə də onun erməni hesab edilmədiyini, beləliklə də stilist xanımın əsassız olaraq suçlandığını qeyd edirlər.**



# Xalq artistinin qızının erməni rəğbətinə müxalifətdən sərt reaksiya

## Tural Abbaslı: "Dövlət bu cür məsələləri nəzarətdə saxlamalıdır"

Azərbaycan mədəniyyəti, incəsənətində xüsusi xidmətləri olan xalq artisti Ramiz Novruzun son vaxtlar adının daha çox qızı ilə bağlı olan qalmaqallarda hallanması da xoşagəlməz olay kimi müzakirə olunmaqdadır. Təbii ki, Azərbaycan cəmiyyəti bu və ya digər formada olan bu cür olayları daha çox neqativ qəbul edir, ictimai hədəfə çıxarır.

**Bəs görəsən, Azərbaycan müxalifətinin bu məsələdə mövqeyi necədir? Mövzu ilə əlaqədar bir neçə siyasətçinin rəyini öyrənməyə çalışdıq.**

**AĞ Partiya sədri Tural Abbaslı qeyd etdi ki, bu məsələdə əsas funksiya daha çox cəmiyyətin, ictimaiyyətin üzərinə düşür:** "İctimaiyyət mədəni təzyiq, ictimai qınaq və digər vasitələrdən istifadə edərək bu cür halların baş verməməsinə çalışmalıdır. İstər dünya, istərsə də beynəlxalq təşkilatlar tərəfindən xalqlar dostluğu, xalqlar arası barışıq kimi qəbul edilən bu cür arqumentlər var - hansı ki, guya iki xalqın bir yerdə yaşamasına zəmin yaratmaq və yaxud Qarabağ probleminin daha rahat həll edilməsi üçün yeridilən bir siyasətdir. Ancaq biz tarixə baxsaq görərik ki, ermənilər dəfələrlə bizim xalqa qarşı satqınlıq edib, terror törədiblər, amma biz hər zaman unutmuşuq, bağışlamışıq və nəticədə bunlar yenidən təkrarlanıb. Bu baxımdan, ictimai qınaq mütləq olmalıdır, istər həmin şəxsin özünə, istərsə də nüfuzlu bir ailənin nümayəndəsidirsə, həmin ailəyə. Dövlətin bu məsələyə münasibəti bir qədər həssasdır. Amma dövlət bu cür məsələləri nəzarətdə saxlamalıdır. İstənilən halda Ermənistan və xalqı Azərbaycanın dostları siyahısında deyil".

## Həsrət Rüstəmov: "Düşmənlə müharibə bitənədək hər hansı yumşaq rəftar doğru sayıla bilməz"

**ADP sədrinin birinci müavini Həsrət Rüstəmov da düşmən dövlətin nümayəndələri ilə dostluğun doğru olmadığını vurğuladı:** "Söhbət əgər Ramiz Novruzdan gedirsə, təbii ki, insanlar yetkinlik yaşına çatan övladlarına görə cavabdeh deyil. Bunun mənəvi tərəfi ola bilər, amma digər tərəfləri aktyora aid deyil. Aktyor tanınmışdır, qızı o qədər tanınan deyil. Amma istənilən halda Azərbaycana zaman-zaman pislik etmiş və onun ərazisini işğal altında saxlayan dövlətin vətəndaşları ilə dostluq etmək doğru deyil. Düşmənlə müharibə bitənə qədər hər hansı bir yumşaq rəftar və müharibənin olmadığını göstərən davranış doğru sayıla bilməz, ən azından bunu təbliğ etmək lazım deyil. Dövlətin bu məsələyə reaksiyasına gəldikdə isə, bunun hüquq tərəfi yoxdur - məsələn, düşmənlə konkret olaraq necə rəftar etmək lazımdır və sairə. Hətta Ermənistan Azərbaycana rəsmi olaraq müharibə elan etməyib. Yəni bu cür məsələlərin ümumi tərəfinə nəzər yetirdikdə dövlət belə şəxslərə heç nə deyə bilməz, biz istəsək belə. Amma digər tərəfdən, bunun doğru olmadığını insanlara çatdıra, təbliğat apara, bu cür halların olmaması üçün əlindəki fürsətlərdən istifadə edə bilər. Elə bir gün olmur ki, Azərbaycan cəbhəsində itki verməyək, mülki əhali yaralanmasın. Belə bir vəziyyətdə düşmən ölkə, onun xalqı ilə yumşaq rəftar edən insanları başa düşmək çətindir və onları ictimai qınağa tuş gətirmək lazımdır. Burada kiminsə erməni əsilli şəxslə münasibəti deyil, onun cəmiyyətdə yaratdığı əks-səda məsələsi müzakirə edilir. Sabah müharibə başlasa və digər tərəfdən, düşmən xalqına məhəbbət oyadan təbliğat gedirsə, bunu necə qəbul etmək olar?! Niyə məşhur şəxslərin bu cür davranışları bizi narahat edir, ona görə ki, onların ictimai rəyə xüsusi təsirləri var".

## Xəzər Teyyublu: "Bu, azərbaycançılığa böyük həqarət hesab olunmalıdır"

**KXCP sədr müavini Xəzər Teyyublu isə qeyd etdi ki, düşmən ölkənin, millətin nümayəndəsinə rəğbət bəsləmək azərbaycançılığa qarşı böyük həqarət hesab olunmalıdır:** "Zaman-zaman bu cür olaylar olur. Buna qarşı ciddi reaksiyalar olmalıdır. Niyə bu cür məsələlərə yol verilir?! Biz bu gün ermənilərlə düşmən səviyyəsindəyik, onlar bizim torpaqlarımızı işğal ediblər. İctimaiyyət daha çox şou aləminin nümayəndələrinin, aktyorların sözlərini qəbul edir, anlayır. Ona görə bu insanlar başa düşməlidirlər ki, onların övladları da sıradan bir adamlar deyil və bu cür açıqlamaları böyük məsuliyyət tələb edir. Əgər bu faktdırsa, böyük ayıb sayılmalıdır. Düşmən ölkənin, millətinin hər hansı nümayəndəsinə qarşı bu cür mövqe göstərmək azərbaycançılığa böyük həqarət hesab olunmalıdır. Ona görə də belə insanlar, sadəcə, məsuliyyəti anlamalıdırlar - istər xalq, istərsə də əməkdar artist olsun, dəxli yoxdur. Bununla bağlı Azərbaycanın siyasi, ictimai gündəmində Vətənə sevgi, bütövçülük və düşmənə qarşı ümumi vahid mövqe sərgiləmək boşluğu var. Ona görə də ara-sıra bu cür olaylar baş verir. Şəxsən mən bu cür olayları qüsur, xəta hesab edirəm. Belə faktlar varsa, ictimai qınaq olmalı, pislənilməlidir ki, gələcəkdə digərlərinə örnək olsun. Nə qədər ki, biz ermənilərlə müharibə vəziyyətindəyik radikal, şərhsiz mövqe nümayiş etməliyik - ta ki, Vətənimiz işğaldan azad olunanadək".

**Siyasətçi təkcə ananın düşmən millətinə aid olması məsələsinə də toxunub:** "Bir misal deyim, tarixdə belə bir rəvayət var ki, Atatürk Çanaqqala döyüşündə uduzurmuş. Araşdırma nəticəsində məlum olur ki, döyüşü uduzmaqlarının səbəbi türk generallarının, zabitlərinin arvadlarının və ya analarının türk olmamasıdır. Atatürk bir gecənin içində onların hamısını dəyişir və döyüşlərdə qalib gəlir. Bu, çox önəmli məsələdir. Məsuliyyətli mərhələdə gen, nəsil məsələsinə diqqət edilməlidir".

❑ Xalidə GƏRAY

# Nadir Qafarzadə sosial şəbəkədə qırğın saldı

## Xalq artisti müğənniyə "kölə sənin nəslindir" dedi

**Müğənni Nadir Qafarzadənin sosial şəbəkədə yazdıqları ciddi narazılıq yaradıb. İfaçı sosial şəbəkədə onu tənqid edənlərə sərt münasibət bildirib.**



"Məni sevənləri Allah saxlasın, sevməyənlər onsuz da savadsız və zövqsüz cahillərdir! Onların sevgisi də özləri kimi kalitəsizdir! Çünki mənim varlığım onları narahat edir! Mən, Allahın mübarək ve seçilmiş bəndəsiyəm! Nə xoş mənə! Səhifəmə girib, təhqir və söyüş yazanlar, yazdıqlarınız özünüzə, ananıza, bacınıza və bütün nəslinizə... İndi ürəkli oğlan yazsın, amma telefon nömrəsini də yazsın. Mən isə kefdəyəm, Allah sizi kölə, şanssız və yazıq yaradıb"- deyə N. Qafarzadə bildirib.

Həmin paylaşımdan sonra müğənniyə qarşı izləyicilərin reaksiyası daha sərt olub.

Nadir müzakirələrin artdığını görərək yayımladığı foto və şərhi silib.

Sənətçi yayılan söz-söhbətlərə yenidən aydınlıq gətirmək istəyib.

**N.Qafarzadə bildirib ki, o, xalqı təhqir etməyib, onu instaqramda tənqid edənlərə cavab verib:**

"Bir daha dünənki söhbətə aydınlıq gətirmək istəyirəm. Heç kəsə heç nə qaranlıq qalmasın. Dünənki yazdıqlarım mənim şəxsi səhifəmə girib tənqid edənlərə idi, hamıya şamil etməmişəm. Məni sevməyənlərin Allah canını sağ eləsin. Sevgi güc və zorla əldə edilmir, içdən gəlməlidir. Ömür boyu xalqıma, dövlətimə borclu olmuşam. Məni narahat edən bir məsələ var, bəs biz kimi sevirik və bizi kim sevir? Dostumuz və düşmənimiz kimdir? Hələ ki bunu ayırd edə bilmirik.

İnsanın gərək məqsədi və mövqeyi olsun. Azərbaycanda yaxşı insanlar çoxdur, amma pislər də az deyil. Paxıllar, ev yıxanlar, ailə dağıdanlar, dələduzlar, yalançı və oğrular! Allah hamını bəlalərindən qorusun. Həyat qısadır, gəlin mehriban olaq və elə yaşayaq ki, sonra peşmançılıq çəkməyək. Düşmənlərimizi özümüzə güldürməyək".

Azərbaycanın xalq artisti, aktyor Ramiz Məlik Nadir Qafarzadənin sosial şəbəkədəki paylaşımına münasibət bildirib. "Qafqazinfo" xəbər verir ki, aktyor-rejissor sosial şəbəkədə paylaşım edərək Qafarzadənin ünvanına sərt sözlərdən istifadə edib.

"Sən, deyəsən, ağıllanmadın. Kölə sənin nəslindir. Xalqı təhqir eləmə. Deyəsən, çox harınlamısan. Əvvəlki günlərini, əsgər olan vaxtını yadına sal. Əgər səndə abır-həya yoxdursa, sənə onu başa salarlar"- deyə R. Məlik sosial şəbəkədə qeyd edib.

# İlhamə ilə bağlı "miras qalmaqalı"na son qoyulub

**"Mərhum İlhamə Quliyevanın hüquqi varisləri bacıları İradə və Gülbahardır. Məhkəmə sərvətin bölüşdürülməsi ilə bağlı onların xeyrinə qərar çıxarıb".**



Bu barədə modern.az-a açıqlamasında mərhum xalq artisti İlhamə Quliyevanın yaxın qohumu müğənni Əli Mirəliyev deyib.

O, İlhamə Quliyevanın sərvətinin hüquqi varisləri haqqında danışarkən "oğulluğu Orxan İlhamənin heç nəyidir" deyib.

Ə.Mirəliyevin sözlərinə görə, məhkəmənin qərarından sonra varislik və sərvət iddiasına son qoyulub. "Orxan İlhamə Quliyevanın heç nəyidir. Mən isə İlhamə Quliyevanın dayısının kürəkəniyəm. Məsələn, mən o işdə kiməm ki, sərvətə iddialı olum... İlhamə Quliyeva, sadəcə olaraq, mənə inanırdı və məni çox istəyirdi. Amma bu o demək deyil ki, mən sərvətə hüquqi varis olmalıyam. Hər inanılan adam varis ola bilməz. Hüquqi varislik statusu İlhamənin bacılarındadır"-deyə Əli Mirəliyev bildirib.

Xatırladaq ki, xalq artisti İlhamə Quliyeva vəfat edəndən sonra onun oğulluğu Orxan Nadirov, bacıları və yaxın qohumları arasında varislik və sərvət qalmaqalı qopmuşdu.

YENİ MÜSAVAT

Son səhifə

N 179 (6500) 16 avqust 2016

# Banan yeyib arıqlayan qadın

Loni Jane Antoni adlı qadın meyvə dietinin köməyi ilə arıqladığı üçün internetdə məşhurlaşıb. Bananlardan kokteyl hazırlayan, hər gün banan yeyən qız qısa müddətdə arıqlamağı bacarıb. “Freelee the Banana Girl” adından istifadə edən Loni adlı qız kokteylə ananas və başqa meyvələr də əlavə edir. Hər gün 51 banan yediyi videoları internetdə paylaşan Loni hər gün ən azı 10 banan yeməyi məsləhət görür. Avstraliya mediası qız haqqında yayılan məlumatları dərc etdiyi üçün o daha da məşhurlaşıb. Ölkənin ən məşhur həkimləri qızı sərt şəkildə tənqid edərək, bu yolla arıqlamağa çalışanlara xəbərdarlıq ediblər.



## Hər il 3.5 milyon adam hərəkətsizlikdən ölür

Dünya Səhiyyə Təşkilatının yaydığı hesabata görə, hər il 3,5 milyon insanın hərəkətsizlikdən ölür.

Bu hesabatdan sonra səhiyyə təşkilatı bəyan edib ki, dünyada hərəkət etməmək üzündən bir çox xəstəliklər artıb. Xərçəng, infarkt, damarların tıxanması və s. kimi xəstəliklərin artmasından narahatlıq keçirən təşkilat ən azından hər həftə uşaqların 60, yetkin insanlarınsa 150 dəqiqə aktiv idmanla məşğul olmasını vacib sayıb.



## 40 kiloluq heyvan 4 yaşlı qızı qaçırmaq istədi...

Amerikanın Aydaho ştatında bir ailə Kelsi adlı dörd yaşlı qızını pumanın əlindən xilas edib. İnsident 12 avqustda Reksberq şəhərinə gedən meşə yolunda baş verib. Lenta.ru saytının xəbərinə görə, anası Kera və qohumları ilə birlikdə uşaq düşərgədə qalırdı. Uşağın babası “East Idaho News”a açıqlamasında bildirib ki, uşaq çadırdan itirdiyi ayaqqabısının arxasınca çıxıb. Elə həmin anda onu puma yaxalayıb və meşənin dərinliklərinə doğru gedib. Ailəsi uşağın səsinə çadırdan çıxanda isə “oğru heyvan” qorxaraq qaçıb və uşağı da atıb. Heyvanın çəkisi təxminən 40 kilo olub. Bu səbəbdən də onun 4 yaşlı, 16 kiloluq uşağı qaçırmaq cəhdi çətin başa gəlməyib. Xəbərdə bildirilir ki, qızın həyatına hər hansı təhlükə yoxdur, sadəcə, onun bədənində heyvanın bir neçə izi qalıb və hazırda yaxşılaşır.

# Yaşıl çay psixi pozğunluqları aradan qaldırır



İndiyədək aparılan əksər tədqiqatlar yaşıl çayın sağlamlığa müsbət təsir elədiyini dönə-dönə təsdiq edib. Bazel Universitetinin mütəxəssisləri sübut ediblər ki, yaşıl çay həm də yaddaşı gücləndirir.

İsveçrəli alimlərə görə, bu, perspektivdə bəzi yaddaş zəifliyi kimi psixi pozuntuların aradan qaldırılmasında əhəmiyyətli ola bilər.

Bundan öncə yaşıl çayın tərkibindəki komponentlərin onkoloji xəstəliklərin profilaktikasında müsbət rol oynadığı müəyyən edilmişdi. Az öncə isə alimlər bu içkinin insan beyninə pozitiv təsirini üzə çıxarmışdılar.

# Atanız streslidirsə, siz də elə olacaqsız...




İsveçrəli alimlərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, stress atadan oğula genetik yolla ötürülür. Zurih Universitetində çalışan professor İzabella Mansuy və qrupu bu qənaətə gəlmək üçün siçanlar üzərində araşdırma aparıblar. Onlar yeni doğulmuş siçanları uzun müddət analarından uzaqda saxlayaraq onların əsəbi olmasına şərait yaradıblar. Stress altında saxlanılan siçanlardan törəyən yeni nəsil dünyaya gəldikləri zaman onların da əsəbi olduqları məlum olub. Hətta üçüncü nəsildə də stress izlərinə rast gəlmək mümkün olub. Alimlərə görə, travmaya məruz qalan siçanlar genetik yolla öz hisslərini balalarına ötürür. Onların fikrincə, bu göstərici insanlar üçün də eynidir. Atalar çox əsəbi olduqları zaman oğullarda da əsəbilik hiss edilir.



## Bu yeməklər narkotik effekti verir

Amerikalı mütəxəssislər açıqlayıb ki, bəzi yeməklər insanların orqanizmində narkotik effekti yaradır. Onlar bunu təsdiqləmək üçün maraqlı bir tədqiqat aparıblar. Könüllüləri zülal, yağ və karbohidratların miqdarı eyni olan kokteyllərə qonaq ediblər. Yalnız onlardan bir qrupunda qlikemik indeks daha çox olub. Məlum olub ki, yüksək qlikemik indeksli kokteyllər adamda aclıq hissi yaradır və baş beyində “həzz mərkəzi” adlanan sahənin işini stimullaşdırır.

Beynin məhz bu hissəsi insan narkotik maddələr qəbul edərkən də aktivləşir. Açıqlamaya görə, yüksək qlikemik indeksli ərzaqlar (məsələn, bulka, çips, tost, pivə, xurma, kreker, kartof, qabaq, şokolad batonları və s.) eyni zamanda həzz və aclıq hissi yaradaraq insanı çox yeməyə sövq edir və bu səbəbdən də çəki artır.




**QOÇ** - Təxminən saat 13-ə qədər xoşagəlməz işlərə cəlb oluna bilərsiniz. Buna baxmayaraq, belə hallarda öz mənafelərinizi qorumalısınız. Nahardan sonra bəxtinizin gətirəcəyi gözlənilir.

**BUĞA** - Riskdən və həyatınız üçün önəmli olmayan məsələlərdən uzaq durursanız, günün bəhrəsini lazımınca görəcəksiniz. Tərəddüd etdiyiniz məqamlarda məsləhətləşmələrdən yayınmayın.

**ƏKİZLƏR** - Sağlıq durumunuza diqqət yetirsəniz, gün ərzində hansısa xoşagəlməzliklə rastlaşmayacaqsınız. Günün ikinci yarısında aldığınız hər bir iş təklifinə razılıq verin.

**XƏRÇƏNG** - İşgüzar görüşlər keçirmək üçün çox səmərəli vaxtdır. Ona görə də bütün enerji və diqqətinizi məhz bu istiqamətə yönəltməlisiniz. Maliyyə sövdələşmələrinə isə girişməyin.

**ŞİR** - Hər mənada əhəmiyyətli gündür. İstər fəaliyyət göstərdiyiniz sahələrdə, istərsə də qarşılıqlı münasibətlər zəminində uğurlarınız gözlənilir. Yalnız pulla bağlı passivlik mümkündür.

**QIZ** - Ulduzlar taledən gileylənməyinizə heç bir əsas görmür. Çünki ixtiyarınızda olan bu təqvim sizə olduqca xoş ovqat bəxş edəcək. Məhəbbət amili isə başlıca xilas mənbəyinizə çevriləcək.

**TƏRƏZİ** - İş metodunuzda yenidənqurma aparmağa səy göstərin. Bununla siz gələcək perspektivlərinizə işıq saça bilərsiniz. Səmərəsiz iş prinsipindən qaçın. Nahardan sonra təzə xəbər eşidəcəksiniz.

**ƏQRƏB** - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Amma maraqsız proseslərə müdaxilə etməsəniz, bunun qarşısını az da olsa, ala biləcəksiniz. Əsəblərinizi qoruyun. Axşamsa qonaq gedin.

**OXATAN** - Göy qübbəsi işdən kənarda hansısa uğura yiyələnəcəyinizə təminat vermir. Əksinə, yersiz mübahisələr, ifrat yorğunluq ovqatınızı korlaya bilər. Diqqəti ailə-sevgi münasibətlərinə yönəldin.

**OĞLAQ** - Axşam saat 18-ə qədər ümumi vəziyyət xeyrinizədir. Nüfuzlu adamlarla görüşləriniz müsbət nəticə verəcək. Situasiyalardan asılı olaraq gün ərzində hisslərinizi cilovlamalısınız.

**SUTÖKƏN** - Saat 15:52-yə qədər mənfi enerjili Ay bürcünüzdə qərar tutduğu üçün əsəbi situasiyalardan uzaq olun. Əks halda maddi-mənəvi itkilərlə üzləşəcəksiniz. Ailə-sevgi münasibətlərində obyektiv olun.

**BALIQLAR** - Rastlaşacağınız hadisələr daha çox öz rəftar və gedişlərinizdən asılı olacaq. Belə bir ərəfədə hansısa risk uğursuzdur. Əgər planlaşdırmısınızsa, bu gün mütləq səfərə çıxın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İri balıq tutdular, şəkil çəkdirənlərdən pul aldılar



Türkiyənin Qızılırmak bölgəsində balıqçıların qarmağına 2 metr uzunluğunda, 63 kilo ağırlığında balıq keçib. Səhərin erkən saatlarında balıq tutmağa çıxan Gencay ve Tolga Soysal xalauşaqları belə bir nəticə gözləmirmiş. Amma qarmağa iri bir balığın ilişdiyini onu dartmaqda çətinlik çəkərkən anlayıblar. 1 saat davam edən əziyyətdən sonra balığı sahilə çıxara bilən balıqçılar bir çoxbilmişlik ediblər. İri balığı satışa çıxaran balıqçılar onunla şəkil çəkdirmək istəyən şəxslərdən də pul tələb ediblər. Bununla da bir balıqdan ikiqat qazanc əldə ediblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.